İradə Əlili

VƏTƏNİN CƏSUR DÖYÜŞÇÜLƏRİ

AZƏ-284463

VƏTƏNİN CƏSUR DÖYÜŞÇÜLƏRİ

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

Bakı – 2015

Sabirabad rayon İcra hakimiyyətinin Başçısı İsmayılov Nazim Mehdi oğluna, Sabirabad rayon Hərbi Komissarlığının əməkdaşlarına, Sabirabad rayon Mədəniyyət və Turizim idarəsi və MKS-nin əməkdaşlarına, Azərbaycan Vətən müharibəsi veteranları Sabirabad rayon şöbəsinin əməkdaşlarına, Azərbaycan Qarabağ müharibəsi əlilləri, veteranları və şəhid ailələri İctimai Birliyinin Sabirabad rayon filialının əməkdaşlarına bizə etdikləri köməklik üçün təşəkkür edirik.

Redaktor German
Məsləhətçi Nazim Vəlişov

Bədii redaktor İlhamə Sultan
Korrektor

Operator Ülviyyə Əliyeva ,
Rəsul Əliyev

İradə Əlili

Vətənin cəsur döyüşçüləri.-Bakı, MBM, 2015-172 s.

Kitabda respublikamızın ərazi bütövlüyü və sərhədlərimizin müdafiəsi uğrunda erməni təcavüzkarlarına qarşı qəhrəmanlıqla vuruşmuş Sabirabad rayonundan olan Qarabağ müharibəsində şəhid olmuş və iştirak etmiş döyüşçülər haqqında qısa xronika verilmişdir.

"Xalqımız əsrlər boyu öz torpağını qoruyub, öz milli azadlığını, qürurunu müdafiə edib və bu gün də müdafiə etməyə qadirdir"

H. Əliyev



Ruhu və qələmi ilə döyüşən şair
(Ön söz)

Vallah mən bu qızın əzminə, iradəsinə, dözümünə, həyat eşqinə, Vətən sevgisinə məəttəl qalmışam, daha doğrusu heyran olmuşam. İradə xanımı deyirəm, İradə Əlilini. Əlinizdəki bu kitabın müəllifini. İxtisasca kitabxanaçıdır. Eyni zamanda araşdırmaçıdır, elmi məqalələrin müəllifidir. Yaxınlarda namizədlik dissertasiyasını müdafiə etməyə hazırlaşır. BDU-nun kitabxanaçılıq fakültəsində müəllim işləyir. Paralel olaraq kitabxanada çalışır. İctimai işlərdə fəallıq göstərir, vaxt tapıb, tədbirlərdə iştirak edir. Bütün bunlar bir yana, İradə Əlili şairədir həm də. Kövrək qəlbi, dünyaya özünə məxsus baxışı, insanlara münasibəti və böyük ürəyi onu gözəl şeirlərin müəllifi edib. Üç şeir kitabının müəllifidir İradə xanım. O, az yazır, amma nə yazırsa təbii yazır, səmimi yazır, olduğu kimi yazır, gördüyü kimi yazır, duyğularının diqtəsi ilə yazır. Əlinizdəki kitab şerlər toplusu olmasa da İradə Əlilinin poetik düşüncələrinin məhsulu olan üç şeiri sizlərə təqdim etməyi özümə borc bildim.

NƏVƏM

Yanıma gəl əziz nəvəm
Sənə öyüd verəcəyəm
Həm vəsiyyət həm nəsihət
Arzum bəyan edəcəyəm
Ana adlı bir Vətən var
Sıx sinənə sevginlə sar
Yağıların nəfəsindən
Kəm baxanın kəm gözündən
Nəfisindən onu qopar

Onu qoru özün kimi
Qoru onu gözün kimi
Şirin dilin sözün kimi.
Əziz nəvəm
Ana adlı bir Vətən var
Onsuz ocağın qalanmaz
Ruhun qəlbində dayanmaz,
Ruhunu kimsə oxşamaz .
Səs - ününü duyan olmaz
Vətənsiz ruhsuz bədənsən
Anla onsuz didərginsən
Bil ki, onsuz sən heç kimsən.
Sən Vətənlə bölünməzsən
Əziz nəvəm Tomrisimi
Babəkimi sən unutma
Düşmənlərə sitəm edən
Mübarizi gəl unutma !
Heç bir zaman sən unutma
Anan adlı Vətənini.

DOST

Gözümdə dünyanın işığı sönür,
Bəlkə bu dünyadır, tərsinə dönür.
Azalıb ümidlər kədərə dönüb,
Sevinc öz payını qəmimlə bölür.
Baxıram insanlıq niyyətlərinə,
Beşikdən yalanla ərsəyə gəlmiş.
Dostum, güvənmək istərəm mən sədaqətə
Ümid saxta qapılarda,
həqiqət zara gəlmiş!
İnsanlıqdır ürəkdə ən əziz olan

"Bir yandan boşalıb bir yandan dolan"
Bu dünya kimləri salıb oduna
Sığallayıb, tumar verib çəkib toruna.
Dostum, inanmaq istərəm ülvi dostluğa.
Bu yalan dünyanın işığıyla
Dolammadım, dost.
Düzümü yalanla bölləmmədim mən!
Bir dostla qəlbimi bölləmmədim mən!

ANA, SƏNSİZ KEÇİRDİM

Baxıram göylərə ulduzlar yanar.
Ayın şöləsinin min aləmi var.
Həsrətin yoludur kədərimdədar
Bu yorğun gecədə ürəyim qanar,
Ana, bu yazı da sənsız keçirdim!
Ömrümdən bir ili belə bitirdim!

Gözüm yollarının həsrətindədir,
Təəssüf, gümanım səni səsləyir.
Ümidə təsəllim ancaq səndədir,
Ürəyim yanaraq sənə gəl, deyir,
Ana, buyazı da sənsiz keçirdim!
Ömrümdən bir ili belə bitirdim!

İstəməzdin başım ağrıya belə,
Çəkərdin nazımı sən sevə-sevə,
Qoymazdın yadları göz yaşım silə
İndi o qayğına, həsrətəm elə!

Ana, bu ad günün sənsiz keçirdim!
Ömrümdən bir ili belə bitirdim!

Oxudunuzmu? Bax belə yazır şeirlərini İradə Əlili. Amma bu da hamısı deyil. İradə xanım son bir neçə ildə başqa bir missiyanı da götürüb özünün zərif çiyinlərinə. Heç vaxt müharibə bölgəsində olmayan, güllə səsi eşitməyən bu zərif xanım müharibə mövzusuna müraciət edib. Artıq iki döyüşçü xanım və bir şəhid haqqında kitablar da yazıb, ərsəyə gətirib. Hər kitabı başa çatdırana qədər müxtəlif insanlarla görüşüb, məlumatlar toplayıb, müharibə haqqında söhbətlərə qulaq asıb. Bu kitab isə onun müharibə haqqında yazdığı dördüncü kitabıdır.

Sabirabad rayonunun sonuncu Qarabağ müharibəsində iştirak etmiş igid döyüşçülərindən, şəhidlərdən, əlillərindən və qəhrəmanlarından bəhs edir. Kitabda müharibə iştirakçılarının şücaətləri, müharibə epizodları, müharibə dövrünün siyasi durumu təsvir edilməklə yanaşı, gələcək nəsillərə kifayət qədər statistik məlumat ötürülür.

Sonuncu Qarabağ müharibəsində Azərbaycanın müxtəlif bölgələrindən minlərlə vətənpərvər oğullarımız düşmənə qarşı igidliklə vuruşmuş, sinələrini Vətənə sipər etmişlər. Onların arasında sabirabadlı igidlər də vardı. Onlar Qarabağın ən qaynar nöqtələrində erməni-rus təcavüzkarlarına müqavimət göstərməyə çalışdılar, qeyi-bərabər döyüşlərə atıldılar, ölümün gözünə dik baxdılar, geri çəkilmək ağıllarına belə gəlmədi. Həlak oldular, şəhidlik adlanan zirvəyə yüksəldilər. Yaralandılar, amma səngərlərdən çıxmadılar. Sabirabadlı döyüşçülərdən ikisi Vətənin ən ali mükafatına - Azərbaycanın milli qəhrəmanı fəxri adına (ölümündən sonra) layiq görüldüər. Digər

mükafatlarla da təltif olunanlarda oldu. Lakin onların ən böyük mükafatı xalqın sevgisi oldu.

Şair-publisist İradə Əlilinin bu kitabı gənclərin hərbi-vətənpərvərlik ruhunun inkişaf etməsi istiqamətində vacib bir təbliğat vasitəsidir. Mən İradə Əlilinin son dörd kitabının redaktoruyam və bundan sonra da bu mövzuda yazılmış yeni-yeni əsərlər gözləyirəm. Bu yolda ona uğurlar, səbr, dözüm və tükənməyən ilham arzulayıram.

GERMAN
şair, publisist

DÜŞMƏN ÇƏPƏRİ DEYƏ,
ÇOX OĞULLAR DOĞULDU.
HƏR OĞUL ÇƏPƏR DEYİL,
OĞUL DA VAR, OĞULDU.

Ətrafımda gördüyüm bəzi "vətənpərvər" insanların varlığından sıxılanda, "məhəbbət"-indən daralanda gündəlik həyatımda ürəyimin, beynimin, vətən ağrılarımın axarından keçib gələn bu misralar məni sakitləşdirir, həyatda qalmağıma – ümidlərimin, qəlbimdəki "bəlkə"lərin və gümanların qırılmamasına stimul verir.

VƏTƏN seçilmir. Doğulduğun torpaq, aldığın hava, daddığın nemətlər və s. sənin alın yazındır. Vətənin hər qarış torpağının müqəddəs və keçilməz olduğu, ana nəfəsi, ana südü ilə canımıza, qanımıza hopmuşdur. Vətənin çölü, düzü, çəməni, bir ovuc torpağı belə tam olan, bölünməyən vətən anlamındadır. Vətənimin igid oğulları da, məhz bu arzu və ideya uğrunda mənfur düşmənə nifrət bəsləyərək torpaqlarımızın azadlığı uğrunda canlarından keçməyi bacardılar və ölümlərilə gələcək nəsillərə nümunə oldular. Onlara vətəni sevməyi, qorumağı, lazım gələrsə, onun uğrunda qurban getməyi belə zəngin irs olaraq qoyub getdilər. Mən bu gün ölkələr içində ucalan – qəbuledilən bayrağımızla, iqtisadi cəhətdən inkişaf edən dövlətlərin Azərbaycanla razılaşması ilə, yaşadığımız rahat və firavan həyata görə şəhidlərimizin ruhları, onların əzizləri qarşısında, ürəyinin başında qəlpələr gəzdirən yaralı qardaşlarımız qarşısında baş əyirəm!

MİNAXANIM ƏKRƏMQIZI
"HƏRBİ BİLİK" jurnalı –fotomüxbir
Azərbaycan Yazıçılar Birliyinin üzvü.

HEÇ VƏTƏNSİZ YAŞAMAQ OLARMI ?

XX əsrin sonucu onilliyi yaddaşımıza XX əsrin əvvəllərində olduğu kimi acınacaqlı bir tarix yazdı. Bəli, belə acınacaqlı bir tarix XX əsrin əvvələrində də baş vermişdi. 1905-1906-ci illərdə mənfur ermənilərin Azərbaycana və azərbaycanlılara qarşı xəyanəti, insanlığa sığmayan vəhşi hərəkətləri, davranışları əsil soyqırım hadisəsi idi. Üzdəniraq qonşumuz olan Ermənistanın yeni torpaqlar əldə etmək və dənizdən-dənizə *"Böyük Ermənistan"* yaratmaq istəyi minlərlə ailənin, soydaşlarımızın məhvinə, ölümünə, 20 faizə qədər ərazilərimizin işğalına, insanların ürəklərinin param-parça olmasına, ağlagəlməz olayların, dəhşətlərin baş verməsinə səbəb oldu...

Dünya dövlətlərinin münaqişə adlandırdıqları və ya belə anlamaq istədikləri Qarabağ münaqişəsi əslində böyük bir xalqın, azərbaycanlıların əzablar, iztirablar içində yaşamasına səbəb olan **MÜHARİBƏDİR**. Böyük silah-sursat, texniki arsenalın, pilotlu-pilotsuz uçan təyyarələrin üz-üzə dayandığı, bir milyona yaxın qaçqın və məcburi köçkün ordusunun, 20%-ə qədər itirilmiş torpaqlar, minlərlə itkin və girovlar, 21 minə yaxın şəhidi olan bir **XALQ** bütün bunları yalnız hər hansı bir **MÜNAQİŞƏDƏMİ** itirmiş və ya yaşamışdır ??? Xeyr! Bu, iri dünya dövlətlərin maraqlarının yerinə yetirilməsi uğrunda digər dövlətlərə öz iddialarını qəbul etdirmək vasitəsi olan – **MÜHARİBƏDİR, MÜNAQİŞƏ** yox!!! Ermənistanın Azərbaycandan torpaq qopartmaq istəyi ilə ona qarşı olan müharibəsidir. Elan olunmamış bu müharibə 1988-ci il fevral ayının 13-də başlayıbdır. Ermənistan 12may 1994-cü il

tarixinə qədər - Atəşkəs rejimi təsdiq olunanadək ötən 6 il ərzində Azərbaycan Respublikasının 20 %-ə qədər ərazisini işğal edib. Keçmiş Dağlıq Qarabağ, onun ətrafında olan 7 rayon, eləcə də Naxçıvan Muxtar Respublikasının işğal olunan 1(Sədərək rayonunun Kərki kəndi) və Qazax rayonunun 7 kəndinin (Aşağı Əskipara, Bağanis-Ayrım, Barxudarlı, Xeyrimli, Qızılhacılı, Sofulu, Yuxarı Əskipara) də daxil olduğu işğal olunan ümumi sahə 14 min kvadrat kilometrlik bir ərazini (bu ərazi Ermənistanın texminən yarısı qədərdir) təşkil edir. Hazırda Azərbaycanın ümumilikdə 920 yaşayış məntəqəsi-şəhərlər, qəsəbələr, kəndlər bu gün erməni işğalı altında zillət çəkir. 240 mindən çox azərbaycanlı 3 min il əvvəl yaşamağa başladıqları hazırda Ermənistan adlandırılan ərazidən, 50 min azərbaycanlı Dağlıq Qarabağ Muxtar Vilayətindən 550 min azərbaycanlı isə DQMV-nin ətrafından zorla, silah gücünə çıxarılmışdır. Təbii ki, Azərbaycan torpaqlarını qonşu Ermənistan öz gücünə işğal edə bilməzdi. Bu fakt artıq öz təsdiqini tapmışdır. Heç vaxt öz torpağı olmayan ermənilər Rusiyanın hərbi və siyasi dəstəyi ilə bu müharibəni başladı və işğalı reallaşdırdı. Bu müharibədə 21 minə yaxın azərbaycanlı öldürüldü, 50 mindən artıq həmvətənimiz isə əlil, şikəst oldu.

1988-ci ildə Ermənistanın təkcə Quqark rayonunda 50 nəfər azərbaycanlı qətlə yetirildi, 1990-cı il iyulun 11-də erməni terrorçuları Tərtər-Kəlbəcər avtomobil yolunda azərbaycanlıların maşın karvanına hücum edib, 14 nəfəri öldürdülər, 35 nəfəri ağır yaraladılar; az sonra - 1990-cı il avqusutun 20-də Qazax rayonunun Bağanis-Ayrım kəndinə hücum edib kəndi dağıtdılar və 5 nəfər günahsız, dinc sakini öz evində diri-diri yandırdılar. 16 dekabr 1991-ci il tarixində Xocalı rayonunun

Cəmilli kəndi, 23 dekabr 1991-ci il tarixdə həmin rayonun Meşəli kəndi, 28 dekabr 1991-ci il tarixində isə Kərkicahan qəsəbəsi erməni silahlı qüvvələri tərəfindən işğal edildi. 9 yanvar 1992-ci il tarixində Xocavənd rayonunun Axullu kəndi, 11 fevral 1992-ci il tarixində Şuşa rayonunun Malıbəyli və Quşçular kəndləri, bundan az sonra – 17 fevral 1992-ci il tarixində Xocavənd rayonunun Qaradağlı kəndi işğal olundu; təkcə Qaradağlı uğrunda döyüşlərdə 77 nəfər dinc kənd sakini öldürüldü, onlardan 28 nəfər diri-diri torpağa basdırıldı, 117 nəfər dinc əhali əsir aparıldı. 22 fevral 1992-ci il tarixində Füzuli rayonunun Yuxarı Veysəlli kəndi erməni silahlıları tərəfindən zəbt edildi. Bunun ardınca 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhəri məhv edildi. 613 dinc əhali, o cümlədən 63 uşaq, 106 qadın, 70 qoca xüsusi qəddarlıqla qətlə yetirildi. 1992-ci il aprelin 8-də Kəlbəcər rayonunun Ağdaban kəndi erməni silahlı qüvvələri tərəfindən işğal edilərək yerlə yeksan edildi və 67 dinc sakin öldürüldü, onlardan 17 nəfər, o cümlədən 8 qoca, 7 qadın, 2 uşaq diri-diri yandırıldı... Bunların ardınca Şuşa (8 may 1992-ci il), Laçın(18 may 1993-cü il), Kəlbəcər (2 aprel 1993-cü il), Ağdam (23 iyul 1993 – cü il), Füzuli (23 avqust 1993-cü il), Cəbrayıl (23 avqust 1993 – cü il) Qubadlı (31 avqust 1993-cü il), Zəngilan (30 oktyabr 1993-cü il) rayonları da erməni işğalçı qüvvələri tərəfindən zəbt olundu. Ürəkağrıdıcı bu kimi statistik məlumatların hamısını bura yazmaq və burada yerləşdirmək təbii ki, mümkün deyil. Sadəcə olaraq biz mənfur qonşularımızın vəhşiliklərinin kiçik bir hissəsini qeyd etdik.

Bir faktın burda qeyd edilməsi çox doğru olardı. Ermənistan Elmlər Akademiyasının Sovetlər dövründə ilk

prezidenti olmuş Arberyan da özü hətta yazırdı ki "İndiki Dağlıq Qarabağ orta əsrlər Albaniyasının, sonralar Azərbaycanın bir hissəsi olmuş daha sonralar ermənilər tərəfindən zəbt edilmişdir". Bu fikrin yazılması çox faktların açılmasına və həqiqətin qəbul edilməsinə əsaslı bir dəlildir, tutarlı bir sübutdur...

1930-cu ildə təşkil edilmiş iri kənd təsərrüfatı rayonlarından hesab olunan Sabirabad rayonu Muğan düzünün şimalında, Kür və Araz çaylarının qovuşduğu məkanda yerləşir. Rayonda 1 şəhər, 85 kənd və başqa yaşayış məntəqələri vardır. Əhalisinin ümumi sayı 155, 4 min, ərazisi 1469, 7 km^2-dir. Rayonun ərazisi qədim, erkən və orta əsr yaşayış yerləri, eləcə də qədim abidələri ilə zəngindir. Bölgədə aparılan arxeoloji tədqiqatlar nəticəsində rayonun Surra, Cavad, Qaratəpə, Quruzma, Qaraqaşlı, Bulaqlı, Zəngənə, Qalağayın kəndləri ərazisində qədim yaşayış yerləri və nekropollarını e.ə.V-I, e.ə V-II , e.ə. I və eramızın III əsrlərinə aid etmək olar.

Rayonun ən iri kəndi olan Cavad yaşayış məntəqəsi XVI əsrdən tarixi şəhər olmaqla yanaşı, həm də XVIII əsrin ortalarında Cavad xanlığının inzibati mərkəzi olmuşdur. Azərbaycanın Rusiyanın tərkibinə qatılmasından sonra çarizmin köçürmə siyasəti ilə əlaqədar Cavada da xeyli rus, molokan əhalisi köçürülmüşdür. 1931-ci ilədək rayonun adı Qalağayın və Petropavlovka (1888-ci ildən) olmuşdur. 1931-ci il oktyabrın 7-də rayona Azərbaycanın böyük inqilabçı-satirik şairi M.Ə.Sabirin adı verilmişdir.

Zaman-zaman bu torpağın yetişdirdiyi igid, mərd, qorxmaz oğulları bütün dövürlərdə cəsurluğu və hər zaman igidliyi ilə fərqlənmişlər. 1941-1945-ci illərdə Böyük Vətən müharibəsində Sabirabad rayonunun 3000 nəfər sakini iştirak etmiş, döyüşlərdə mərdliklə vurulmuşdur. Onların yarıdan çoxu cəbhələrdən qayıtmamışdır. Hal-hazırda rayonun 6 nəfər Böyük Vətən Müharibəsinin iştirakçısı sağdır, yaşayırlar. Babalarının keçdikləri şərəfli döyüş yollarını Qarabağ savaşında nəvələri də təkrarlamışdır.

Qarabağ müharibəsində Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə sabirabadlılar da yaxından iştirak etmişlər. Döyüşlər başlayanda digər həmvətənlərimiz kimi sabirabadlılar da könüllü cəbhəyə yollanmış, bu döyüşlərdə igidlik nümunələri göstərmişdir. 440 sabirabadlı erməni işğalçılarına qarşı döyüşmək üçün Qarabağa – Ağdam, Füzuli, Beyləqan, Tərtər və digər cəbhə bölgələrinə gedərək, orada düşmənlə qəhrəmancasına vuruşmuşlar. Sabirabad rayonu torpaqlarımızın bütövlüyü uğrundakı Qarabağ savaşında 225 şəhid vermişdir. 147 nəfər sabirabadlı əlil olmuşdur.

Qarabağ döyüşlərində göstərdikləri mərdliyə, hünərə görə Mübariz Əlizadə oğlu Əhmədov və Fərhad İslam oğlu Ağayev Azərbaycanın Milli Qəhrəmanı fəxri adına layiq görülmüşlər. Onlardan başqa Maqsud Xankişi oğlu Daşdiyev, Daşqın Qonsur oğlu Əhmədov, Yalçın Məmmədxan oğlu Qəhrəmanov, Sərvəl Məmməd oğlu Rəcəbov "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilmişlər. Vaqif və Zakir Feyzullayev qardaşları torpaqlarımızın müdafiəsi uğrunda gedən döyüşlərdə eyni bir gündə şəhid olmuşdur. Bu cəsur döyüşçü qardaşların xatirəsini əbədiləşdirmək üçün rayonun görkəmli yerində onların büstü qoyulmuşdur. Vətən yolunda, Ana torpaq uğrunda şəhid olmuş, öz doğma xalqına əsl

sədaqət nümunəsi göstərmiş eloğullarımızın qəhrəmanlığı heç vaxt unudulmayacaqdır !!!

Bu gün də cəsur sabirabadlılar: "lazım gələrsə, Vətən üçün son damla qanımıza qədər vuruşacağıq; təki torpaqlarımız mənfur düşmənlərdən azad olsun. Ali Baş Komandanımız cənab İlham Əliyev əmr edərsə, torpaqlarımızın müdafisinə hər zaman hazırıq" – deyirlər.

1998-ci ildə Rövşən Azərinin "Unutmaq olarmı, sizi, şəhidlər?" adlı kitabında Sabirabad rayonunun şəhidləri haqqında dolğun məlumat verilmişdir; və bu kitabda olan məlumatlardan da istifadə edib qaynaqlandıq. Biz də çalışdıq ki, işıq üzü görəcək tarixləşən bu "Vətənin cəsur döyüşçüləri" kitabında Vətən üçün canını fəda etmiş igidlərdən bəhs edək, sağlamlığını torpaqlarımızın qorunmasında, müdafiəsində itirmiş, səngərlərdə gecələyib səhəri açan qorxmaz insanlardan yazaq. Təbii bir kitabda bu cəsur insanların hamısı haqqında məlumat vermək olmur. Çalışdıq ki, sabirabadlı qəhrəmanların igidliyindən, döyüşlərdə onların sınmayan iradəsindən məlumat verək. Qeyd etmək istərdik ki, sağ qalmış sabirabadlı döyüşçülərdən adları bu kitabda qeyd olunmayanlarda ola bilər. Biz çalışdıq ki, hər bir vətəndaşımızın adı burda çəkilsin. Bu kitabın davamı olacaq ikinci kitabda döyüşçülər haqqında daha ətraflı məlumatlar veriləcək.

Bu kitab tarix üçün bir yaddaş olacaq. Gələcək nəsillər bu sənədlə Vətən uğrunda canını fəda etmiş, sağlamlığını, səhhətini itirmiş qəhrəmanlar haqqında məlumatlanmış olacaqlar. Tarixi yazmalıyıq ki, o, tarix unudulmasın. **UNUTMAĞA VƏ UNUDULMAĞA BİZİM ƏSLA HAQQIMIZ YOXDUR !!!**

Azf-28*753

Vətən yolunda şəhid olanlar ölmürlər, xalqın qəlbində, ürəyində əbədi yaşayırlar. Biz onların qəhrəmanlığı, şəhidliyi ilə fəxr edirik. Bu, bizim millətimizin iftixarıdır.

HEYDƏR ƏLİYEV

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

"Allah yolunda öldürülənlərə (şəhid olanlara) "ölü" deməyin. Əksinə, onlar (Allah dərgahında) diridirlər, lakin, siz bunu dərk etmirsiniz". ("Bəqərə" 154)

ƏHMƏDOV MÜBARİZ ƏLİZADƏ oğlu

Mübariz Əhmədov 1963-cü il yanvarın 1-də Qaratəpə kəndində anadan olub.M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus dili və Ədəbiyyatı İnstitutunda təhsil almışdır. O, 1989-cu ildə Qarabağın müdafiəsinə yollanan ilk sabirabadlı olmuşdur. Ağdamda bölük komandiri kimi düşmənlə döyüşdə dəfələrlə hünər göstərmişdir. Dovşanlı, Xromort, Qazançı, Əsgəran, Pircamal, Aranzəmin, Ağbulaq, Yenikənd, Naxçıvanik, Abdal-Gülablı, Kətik, Dəhraz, Xanabad və Şuşa döyüşlərində mərdliklə vuruşmuşdur. Mübariz Əhmədov 1992-ci il sentyabrın 24-də Abdal-Gülablı kəndi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Ölümündən sonra Mübariz Əhmədov **"AZƏRBAYCANIN MİLLİ QƏHRƏMANI"** adına layiq görülmüşdür.

Bu kitabın yazılması barəsində Milli Qəhrəmanın nur üzlü anası Tamara ana ilə görüşüb söhbət edərkən onun gözündə olan kədəri aydın sezmək olurdu. "Mübarizim torpaq üçün yaranmışdı. Analar onun kimi igidi dünyaya gətirə bilməzlər, bir dənə idi"- dedi bu qəlbi kövrək olan şəhid anası Tamara ana. Göz yaşlarını saxlaya bilməyib bu sözləri də əlavə etdi – "Vətəni, torpağı çox sevirdi. Dincliyini itirmişdi alınan torpaqlarla birlikdə". Mübarizim deyirdi: "Ana, mən düşmənləri torpağımızdan qovmasam sakit ola bilmərəm. Axı erməni kimdir ki, mən ondan qorxum, geri çəkilim?". Tamara ana bu sözlərindən sonra köks ötürüb dedi: "Təki Vətənim sağ olsun, yurdumuz, elimiz erməni mənfurlarından təmizlənsin, həm mən sakitləşərəm bir şəhid anası kimi, həm də mübariz ruhlu Mübarizim. Və bir arzum

var; o da bundan ibarətdir ki, oğlumun adını əbədiləşdirsinlər". Biz şəhid Mübarizin anasını ziyarət edən zaman oraya Mübarizin Ağdamdan olan döyüşçü dostu Oruc Cabbarov da gəlib çıxdı. O, Mübarizin döyüş zamanı mərdliyindən söhbət etdi. "Bu kənddən döyüşlərə ilk qoşulan Mübariz olub.Çox cəsur idi, qorxmurdu heç nədən. Fikri ancaq düşmən üzərində qələbə idi. Sabirabaddan çox döyüşçü dostlarım olub, amma adlarını unutmuşam, axı neçə illər keçib, müharibənin həyəcanı, aldığımız yaralar, ağır döyüşlər, doğma el-oba itkisi, bunlar hər biri insan yaddaşına, xatirəsinə təsir edir. İlqar Möhlət oğlu Mehtiyev, Möyləm Məmməd oğlu Xanışov, İlham İsmayılxan oğlu Əhmədov, Vüqar Nəriman oğlu Kərimov və digər cəsur sabirabadlı igidlərlə çox döyüşlərdə olmuşam", – dedi Oruc Cabbarov.

Biz də öz növbəmizdə şəhidlik zirvəsinə ucalan Mübariz Əhmədova və onun timsalında bütün şəhidlərimizə Allahdan rəhmət diləyirik, ruhu şad olsun!

AĞAYEV FƏRHAD İSLAM oğlu

Fərhad Ağayev 1975-ci il avqustun 4-də Lerik rayonunun Şivlə kəndində dünyaya göz açıb. 1976-cı ildə ailəsi ilə birlikdə Sabirabad rayonunun Əliləmbəyli kəndinə köçmüşdür. 1993-cü ilin oktyabrında Sabirabad rayonunun Hərbi Komissarlığından hərbi xidmətə çağırılmışdır. 1994-ci ilin yanvarında Füzuli rayonunun Seyidəhmədli kəndi uğrunda gedən döyüşlərdə fəal iştirak etmişdir. 1994-cü ilin fevralında Kəlbəcər ərazisində Murovdağ, Yanşaq, Ömər və Güzgü uğrunda gedən döyüşlərdə düşmənin məhv edilməsi uğrunda

qəhrəmancasına mübarizə aparmışdır. O, 27 dəfə döyüş əməliyyatlarında iştirak etmişdir. O, 1995-ci ilin mart ayının 15-də Ağstafa rayonunda dövlət çevrilişinə cəhd göstərənlərin gülləsinə tuş gəldi. Bayram ərəfəsində ailəsinə onun özü yox, tabutu onların görüşünə gəldi. 1995-ci il Azərbaycan Respublikasının Prezidentinin fərmanı ilə Fərhad Ağayevə ölümündən sonra **"AZƏRBAYCANIN MİLLİ QƏHRƏMANI"**adı verilmişdir. Həmin ildə adı əbədiləşdirilərək təhsil aldığı Sabirabad rayon Əliləmbəyli kənd orta məktəbinə verilmişdir. Vətən uğrunda vuruşub şəhid olanlar heç vaxt unudulmur. Allah rəhmət eləsin!

DAŞDİYEV MAQSUD XANKİŞİ oğlu

Maqsud Daşdiyev 1973-cü ildə Muradbəyli kəndində anadan olub. 1992-ci ildə Sabirabad rayon Hərbi Komissarlığından hərbi xidmətə çağırılmışdır. İlk təlimlərdən sonra cəbhənin Füzuli, Kəlbəcər, Ağdərə, Murovdağ ətrafında gedən döyüşlərdə iştirak etmişdir. 1993-cü ilin dekabr ayının 12-də Füzulinin Böyük Bəhmənli kəndinin düşmənlərdən qorunmasında gedən döyüşdə özünü düşmənin zirehli tankının altına ataraq şəhid olmuşdur. Ölümündən sonra cəsur döyüşçüyə **"AZƏRBAYCAN BAYRAĞI"** ordeni verilmişdir. 1994-cü ildən Qasımbəyli kənd orta məktəbi şəhidin adını daşıyır. Allah rəhmət eləsin!

ƏHMƏDOV DAŞQIN QONSUR oğlu

Daşqın Əhmədov 1970-ci il aprelin 16-da Sabirabad rayonunun Ulacalı kəndində anadan olub. 1988-1990-cı illərdə Krasnoyarsk şəhərində hərbi xidmətdən qayıtdıqdan sonra DİN Sabirabad rayon şöbəsində asayişi mühafizə dəstəsində polis köməkçisi işləyən Daşqın Əhmədov Xocalı faciəsindən sonra 1992-ci il mart ayının 21-də Sabirabad rayon Hərbi Komissarlığına ərizə verərək könüllü olaraq Qarabağa müharibəyə yola düşmüşdür.1992-ci ilin iyun-iyul aylarında Ağdam bölgəsində gedən ağır döyüşlərdə cəsur tağım komandiri kimi döyüşmüşdür. 1992-ci il Pircamallı kəndi uğrunda gedən döyüşdə çətin vəziyyətdə qalmış döyüşçü yoldaşlarına yardım edib, onları bu vəziyyətdən çıxaran zaman qəhrəmancasına həlak oldu, şəhidlik zirvəsinə ucaldı. İgidlik və şücaətinə görə şəhid Əhmədov Daşqın Qonsur oğlu **"AZƏRBAYCAN BAYRAĞI"**ordeni ilə təltif edildi. Hazırda Ulacalı kənd xəstəxanası şəhidin adını daşıyır. Allah rəhmət eləsin!

QƏHRƏMANOV YALÇIN MƏMMƏDXAN oğlu

Yalçın Qəhrəmanov 1974-cü il yanvarın 1-də Sabirabad rayon Qaratəpə kəndində anadan olub. 1992-ci il Sabirabad rayonunun Hərbi Komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılmışdır. Qarabağ bölgəsində Ağdam, Ağdərə istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. 1993-cü ilin dekabrında ulu öndər H.Əliyev Füzulidə əsgərlərlə görüşmüş və döyüşçülərə qol saatı hədiyyə etmişdi. O əsgərlərin

arasında cəsur döyüşçü Yalçın da var idi. Ölümdən qorxmayan, son nəfəsinə kimi döyüşən, "məni öldürsünlər, amma anamıza, bacımıza işgəncə verməsinlər" deyən igid Yalçın 1993-cü il dekabrın 11-də Füzulinin Böyük Bəhmənli kəndi uğrunda gedən döyüşlərdə qəhrəmanlıq göstərərək həlak olur, şəhidlik zirvəsinə ucalır. Ölümündən sonra **"AZƏRBAYCAN BAYRAĞI"** ordeni ilə təltif edilmişdir. Qaratəpə kənd xəstəxanasına şəhid Yalçın Qəhrəmanovun adı verilib. Allah rəhmət eləsin!

ABBASOV ASİF MAHUR oğlu

Abbasov Asif 1972-ci ildə Qaratəpə kəndində anadan olmuşdur. 1992-ci ildə Rusiyadan hərbi xidmətdən gələndən 3 ay sonra birbaşa könüllü olaraq Ağdam bölgəsinə yola düşmüşdür. 1994-cü ilin aprelin 27-də Qərvənd uğrunda gedən döyüşlərin birində həlak olmuşdur. Allah rəhmət eləsin!

ABBASOV ŞAKİR ƏSƏD oğlu

Abbasov Şakir 1975-ci il iyun ayının 19-da Sabirabad rayonunun Suqovuşan kəndində anadan olmuşdur. 1993-cü ildə Suqovuşan kəndindən Milli Ordu sıralarına çağırıldı və Füzuli bölgəsinə yollandı.1994-cü ilin aprelin 19-da Şakir ağır yaralandı. 1994-cü il aprelin 23-də əbədiyyətə qovuşmuşdu. Allah rəhmət eləsin!

ABDULLAYEV PƏRVİN NƏBİ oğlu (şəhid)

Pərvin Abdullayev 1991-ci il aprelin 5-də Sabirabad rayonu Xəlfəli kəndində anadan olub. 2009-cu il may ayında Sabirabad rayonunun Hərbi Komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılmışdır. Tərtər rayonunda yerləşən "N" saylı hərbi hissədə xidmət edərək, bu bölgədə gedən döyüşlərdə iştirak etmişdir. Kəşfiyyat dəstəsində olan Pərvin Abdullyev neçə-neçə uğurlu hərbi əməliyyatların baş tutmasında igidlik göstərmişdir. 2010-cu il avqustun 31-də Ermənistan Silahlı Qüvvələrinin təxribat qrupu Tərtər rayonu Çaylı kəndi istiqamətindəki qoşunların təmas xəttini keçərək, Azərbaycan Silahlı Qüvvələrinin mövqeyinə hücum edir. Müşahidə postunda Pərvin erməni quldurlarını görür onlara müqavimət göstərir. Bu cəsur hərəkəti ilə 8 döyüşçü yoldaşını qoruyub xilas edir. Yaralı müşahidəçi yaralı döyüşçünü döyüş zolağından çıxardan zaman özü çox saylı güllə yarası alır və 2010-cu il sentyabrın 1-də şəhidlik zirvəsinə ucalır. Allah bütün şəhidlərimizə rəhmət eləsin!

ABUŞOV FİKRƏT NƏRÇƏ oğlu

Abuşov Fikrət 4 yanvar 1975-ci ildə Sabirabad rayonunun Qalağayın kəndində anadan olmuşdur. Milli Ordu sıralarına 15 aprel 1993-cü ildə Qalağayın kəndindən yola salınıb. 3 aya yaxın hərbi təlim keçdikdən cəbhənin Ağdam bölgəsinə göndərilib.1993-cü ilin avqust ayının 23-də həmin ərazidə erməni işğalçı qüvvələri ilə baş verən döyüşlərin birində itkin düşüb.

AĞAHÜSEYNOV FƏXRƏDDİN SÜBHAN oğlu

Ağahüseynov Fəxrəddin 1964-cü ilin sentyabr ayında Şıxsalahlı kəndində anadan olmuşdur. 1983-1985-ci illərdə Rusiyada həqiqi hərbi xidmətini layiqincə yerinə yetirib Vətənə qayıtmışdır.1992-ci ilin iyun ayının 9-da könüllü olaraq Qarabağa yollanmışdır. İlk döyüşü Ağdərə bölgəsindən başlamışdır. 1994-cü ilin fevral ayının 11-də Füzuli rayonunun Aşağı Seyidəhmədli kəndi uğrunda gedən döyüşlərdə ağır yaralanır. 1994-cü ilin may ayının 20-də ürəyi Vətən, azadlıq eşqilə döyünən daha bir həmyerlimiz həyatdan əbədi olaraq köçür. Allah rəhmət eləsin!

AĞAMALIYEV QAŞQAY QULAMƏLİ oğlu

Ağamalıyev Qaşqay 15 noyabr 1968-ci ildə Sabirabad rayonunun Qəzli kəndində anadan olmuşdur.1987-ci ilin noyabrında Sovet Ordusu sıralarına getmişdir.1990-cı ilin iyul ayında ordudan qayıdıb. 1992-ci ildə könüllü olaraq Milli Ordu sıralarına getmişdir. 17 fevral 1994-cü ildə döyüşlərin birində başından qəlpə yarası alır və əsir düşür. 1995-ci ilin 12 mayında əsirlikdən azad edilir. Onu hərbi hospitala göndərirlər. 1995-ci ilin 8 avqustunda dünyasını dəyişmişdir . Allah rəhmət eləsin!

AĞAMƏMMƏDOV İSMAYIL ƏFQAN oğlu

İsmayıl Ağammədov 1989-cu il mart ayının 3-də Sabirabad rayon Yolçubəyli kəndində anadan olmuş - dur. 2007-ci il aprelin 14-də Sabirabad rayon Hərbi Komissarlığı

tərəfindən həqiqi hərbi xidmətə çağırılmışdır. Tərtər rayonunda "N" saylı hərbi hissə - də xidmət etmişdir. Cəsur həmyerlimiz İsmayıl Ağammədov 2008-ci il yanvar ayının 20-də sərhədlərimizin qorunması zamanı düşmən güllәsin - dən ölümcül yaralanaraq şəhidlik zirvəsinə ucaldı. Allah rəhmət eləsin!

AĞARƏHİMOV AFƏT ABDULLA oğlu

Ağarəhimov Afət 1975-ci il mart ayının 14-də Yenikənd kəndində dünyaya göz açmışdır. 1993-cü il may ayının 5-də hərbi xidmətə çağırılmışdır. 2 ay hərbi təlimin sirlərinə bələd olduqdan sonra Ağdam bölgəsinə yola düşür.1994-cü ilin yanvarın 12-də Füzulinin Qaraxanbəyli kəndində gedən döyüşlərin birində qəhrəmancasına şəhid olmuşdur. Allah rəhmət eləsin!

AĞAYEV AĞADADAŞ AĞA oğlu

Ağayev Ağadadaş 1973-cü il oktyabrın 3-də Sabirabad şəhərində anadan olmuşdur.1980-1988-ci illərdə Sabirabad şəhər Zeynalabdin Tağıyev adına məktəbin 8-ci sinfini bitirmişdir. 1993-cü ilin martın 31-də hərbi xidmətə çağırılmış, Gəncə şəhərinə və Qarabağın ağır dəqiqələrində Şişqaya bölgəsinə göndərilib. 31.03.1993-cü ildə Milli Ordu sıralarına getmiş, Füzuli rayonunun və Şişqaya adlanan təpəlikdə bölgəsində döyüşdə olmuş, 1994-cü il yanvarın 26-da Şişqayada aldığı ağır xəsarətdən dünyasını dəyişmişdir. Allah rəhmət eləsin!

AĞAYEV HƏSƏN HÜSEYN oğlu

Ağayev Həsən 14 iyul 1973-cü ildə Sabirabad şəhərində anadan olmuşdur. 1980-1990-cı illərdə S.Vurğun adına orta məktəbi qurtarmışdır.1992-ci il noyabr ayının 15-də Sabirabad şəhərindən həqiqi hərbi xidmətə çağırılmış, ilk təlimdən sonra döyüş bölgələrinə yollanmışdır. Tərtər, Ağdərə, Füzuli, Kəlbəcər bölgələrində döyüşlərdə iştirak edib. 1994-cü il yanvar ayının 14-də Kəlbəcər bölgəsinin Qızılqaya yüksəkliyi uğrunda gedən döyüşlərin birində şəhid olmuşdur. Allah rəhmət eləsin!

AĞAYEV MİRPAŞA SEYİDABBAS oğlu

Ağayev Mirpaşa 1972-ci ilin aprel ayının 27-də Cavad kəndində anadan olmuşdur.1992-ci ilin dekabr ayının 12-də Sabirabad rayon Hərbi Komissarlığı tərəfindən Azərbaycan Milli Ordusuna yollanmışdır. 1993-cü ilin fevral ayının 17-də Ağdərə rayonunun Mehmanə kəndi uğrunda gedən döyüşlərdə itkin düşmüşdür.

AĞAYEV SABİR MİRQƏDİR oğlu

Ağayev Sabir 1971-ci ilin oktyabr ayının 24-də Sabirabad rayonunun Axtaçı kəndində anadan olmuşdur. 1990-1992-ci illərdə Rusiyada həqiqi hərbi xidmətini başa vurmuşdur.1993-cü ildə Hərbi Komissarlığın çağırışı ilə Füzuli bölgəsinə yola düşmüşdür. Bir neçə odlu-alovlu döyüşlərdə böyük məharət göstərmişdir.1994-cü ilin yanvarın 26-da Füzulinin Yuxarı Əbdürrəhmanlı kəndi ətrafında gedən döyüşlərin birində qəhrəmancasına həlak oldu. Allah rəhmət eləsin!

ALMAZOV NÜSRƏTƏLİ ƏFLAN oğlu

Almazov Nüsrətəli 1962-ci il dekabr ayının 7-də Qaratoğay kəndində anadan olmuşdur. 1981-1983-cü illərdə Rusiyada həqiqi hərbi qulluqda olmuşdur. Qarabağda gedən müharibə Nüsrətəlidən də yan keçmədi. Hərbi səfərbərliklə əlaqədar 1992-ci ilin aprel ayının 13-də əlinə silah alıb Qarabağın müdafiəsinə yollandı. 1992-ci ilin avqust ayının 11-də Ağdərə bölgəsində gedən qızğın döyüşlərin birində igidliklə həlak olmuşdur. Vaxtilə oxuduğu kənd orta məktəb şəhid Nüsrətəlinin adını daşıyır. Allah rəhmət eləsin!

ASLANOV FƏQANİ MƏHƏRRƏM oğlu

Aslanov Fəqani 1 yanvar 1974-cü ildə Sabirabad rayonunun Ulacalı kəndində anadan olmuşdur. 1993-cü ildə Sabirabad rayon Hərbi Komissarlığından Azərbaycan Milli Ordusunda hərbi xidmətə getmişdir. Sıravi əsgər kimi Füzuli, Beyləqan və Ağdam bölgələrində döyüşlərdə iştirak etmişdir. 1994-cü ilin yanvar ayının 14-də Ağdam rayonunu ərazisində erməni uğrunda işğalçı qüvvələri ilə gedən döyüşlərin birində qəhrəmancasına həlak olmuşdur. Allah rəhmət eləsin!

BABAYEV ŞƏFİ ADİL oğlu

Şəfi Babayev 1971-ci il ildə Surra kəndində anadan olub. 1990-cı il Rusiyada həqiqi hərbi xidmətdə olub. Hərbi xidməti bitirib 1993-cü ildə könüllülər dəstəsində torpaqlarımızın toxunulmazlığı uğrunda mübarizəyə qoşulub.

1994-cü ildə Qubadlıda gedən qanlı döyüşlərdə şəhid olub. Atası Adil kişi – on bir övladımın hər biri mənə çox əzizdir. Şəfi ortancıl olsa da, bacı-qardaşları onun ciddiliyindən çəkinirdilər. Yaşlı insanları sevir, onlara hörmətlə yanaşırdı. Bir dəfə o, kənddə yol ilə gedən zaman yaşlı bir kişinin ağır kisəni kürəyində apardığını və ətrafda bu mənzərəni seyr edən bir dəstə gəncləri görür çox pis hal keçirir. İçində qəzəb onu boğur niyə bu yaşlı ataya cavanlar kömək etmir, deyə fikirləşir və onlara bir söz demədən özü yaşlı kişinin kürəyini əzən o ağır kisəni alıb düz evinə kimi aparır. Oğlum Şəfi çox ciddi və haqq-ədalət sevən bir gənc idi. O, idmanla məşğul olurdu, güləşçi idi. Yarışlarda çoxlu fəxri fərman və diplomlar qazanmışdı. Oğlanlarım Vəfadar və Yaşar da torpaqlarımızın azadlığı uğrunda döyüşlərdə iştirak etmişlər. Övladlarımla fəxr edirəm. Allah bütün övladları qorusun, Vətən uğrunda canından keçən şəhidlərə Allah rəhmət eləsin!

BAĞIROV ELÇİN ƏHMƏDAĞA oğlu

Bağırov Elçin 1973-cu ilin sentyabrın 20-də Moranlı kəndində anadan olmuşdur.1992-ci ildə həqiqi hərbi xidmətə çağırılmışdır. İlk təlimdən sonra Füzuli bölgəsinə yollanmışdır. 1993-cü ilin mart ayının 19-da Füzuli bölgəsində gedən döyüşlərin birind qəhrəmancasına həlak olmuşdur. Allah rəhmət eləsin!

BAĞIROV İSMAYIL YUSİF oğlu

Bağırov İsmayıl 1975-ci il mayın 21-də Suqovuşan kəndində anadan olub. 1993-cü ilin sentyabr ayında hərbi xidmətə getmişdir. 1993-cü il dekabr ayının 10-da Üçtəpə qərargahından Füzuli rayonunun Şükürbəyli kəndinə yola düşmüşdür. 1994-cü ilin aprelin 15-də Füzuli bölgəsində qəhrəmancasına şəhid olmuşdur. Allah rəhmət eləsin!

BƏDİROV ZAUR BABAXAN oğlu

Bədirov Zaur Nəsimi kəndində anadan olub. 1993-cü ilin may ayının 21-də həqiqi hərbi xidmətə çağırılıb. Torpaqlarımızın qorunması uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 1995-ci il iyul ayının 2-də Füzulinin Kürdmahmudlu kəndi uğrunda gedən döyüşlərin birində qəhrəmanlıqla həlak olub. Allah rəhmət eləsin!

BURFANOV RASİM RƏŞİD oğlu

Burfanov Rasim 1971-ci il sentyabr ayının 1-də Cavad kəndində anadan olmuşdur. 1989-1991-ci illərdə Litva şəhərində həqiqi hərbi xidməti başa vurub Vətənə qayıtmışdır. Müharibədə iştirakının 3-cü ayı 1993-cü ilin sentyabrın 7-də Ağdərə ətrafında gedən döyüşlərdə əsl igidlik göstərərək həlak olmuşdur. Allah rəhmət eləsin!

CAHANGİROV İSMAYIL ALLAHVERDİ oğlu

Cahangirov İsmayıl 7 fevral 1971-ci ildə Sabirabad rayon Qaratəpə kəndində anadan olmuşdur. 1989-cu ildə hərbi xidmətə çağırılıb. Hərbi xidmətini Primorsk diyarında keçirib. 1991-ci ildə hərbi xidmətini qurtarıb. 1992-ci ilin avqustun 16-da yenidən Azərbaycan Milli Ordusunda xidmət etmək üçün hərbiyə çağırılıb. Lənkəran şəhərində hərbi hissədə qulluq edib. Ağdərə və Laçın rayonlarında döyüşüb. Bundan başqa, Füzuli bölgəsində 1993-cü ildə Şişqaya döyüşlərində vuruşub. 1994-cü ilin yanvarın 31-nə keçən gecə itkin düşüb.

CƏFƏROV TƏVƏKKÜL İLYAS oğlu

Cəfərov Təvəkkül 1956-cı il iyul ayının 14-də Muğan-gəncəli kəndində anadan olmuşdur.Orta məktəbi bitirdikdən sonra Rusiyanın Lvov şəhərində həqiqi hərbi xidmətini başa vurmuşdur. 1992-ci ilin mart ayında silaha sarılaraq Füzuli bölgəsinə yola düşmüşdür.1992-ci il sentyabrın 3-də Füzuli bölgəsində gedən döyüşlər nəticəsində qəhrəmancasına həlak olmuşdur.Allah rəhmət eləsin!

DƏMİROV MADAR GÜLBABA oğlu

Dəmirov Madar 1974-cü il noyabr ayının 13-də Minbaşı kəndində anadan olmuşdur.1993-cü ilin noyabr ayında həqiqi hərbi xidmətə çağırılmışdır. Madar öz çevikliyi ilə yoldaşlarının dərin rəğbətini qazanmışdır. 1994-cü ilin may

ayının 9-da Ağdamın Güllücə kəndi uğrunda gedən döyüşlərin birində qəhrəmancasına həlak olmuşdur. Allah rəhmət eləsin!

DOSTİYEV AYDIN ƏLİSOLTAN oğlu

Dostiyev Aydın 1974-cü il iyun ayının 6-da Sabirabad rayon Ulacalı kəndində anadan olmuşdur. 1992-ci ildə Azərbaycan Milli Ordusu sıralarına çağırılmışdır.Füzuli bölgəsində ümumqoşun tank batalyonunda xidmət etmişdir.1994-cü ilin yanvar ayında Füzuli bölgəsində gedən şiddətli döyüşlərin birində şəhid olmuşdur. Allah rəhmət eləsin!

ƏHƏDOV CAVİD ABDULƏHƏD oğlu

Əhədov Cavid 1970-ci il mart ayının 11-də Ulacalı kəndində dünyaya göz açıb. 1988-1990-cı illərdə Sovetlər ordusunda həqiqi hərbi xidmətdə olub. 1992-ci ildə könüllü olaraq Füzuli istiqamətində gedən döyüşlərdə iştirtak edib. Füzuli rayonunun Qacar, Govşadlı kəndlərində azğın düşmənə qarşı mübarizədə böyük igidlik göstərib. 1993-cü ilin iyul ayının 28-də Füzulinin Zərgər kəndi ətrafında gedən döyüşlərin birində qəhrəmancasına həlak olub. Allah rəhmət eləsin!

ƏHƏDOV FƏRZULLA SƏYYAH oğlu

Əhədov Fərzulla 1967-ci ilin yanvar ayının 10-da Xankeçən kəndində anadan olmuşdur. 1992-ci ilin mart ayının 18-də könüllü olaraq əlinə silah alaraq Vətənin müdafiəsinə

qalxmışdır.Bir neçə döyüş bölgələrində əsl igidlik göstərmişdir. 1994-cü ilin yanvar ayının 29-da Beyləqan ətrafında gedən döyüşlərin birində qəhrəmancasına həlak olmuşdur. Allah rəhmət eləsin!

ƏHMƏDOV CAVAD MİKAYIL oğlu

Əhmədov Cavad 1975-ci ilin avqust ayının 24-də Xankeçən kəndində anadan olub.1993-cü ilin oktyabr ayının 4-də Cavadı da həqiqi hərbi xidmətə çağırdılar. Qətiyyətlə vuruşurdu eloğlumuz. Cavad Əhmədov Füzuli bölgəsində gedən döyüşlərdə də iştirak edib. 1994-cü ilin yanvar ayının 10-da itkin düşüb.

ƏHMƏDOV İLKİN AĞAMALI oğlu

Əhmədov İlkin 5 noyabr 1973-cü ildə Sabirabad rayonunun Bulduq kəndində anadan olmuşdur.1994-cü ildə Sabirabad rayon Hərbi Komissarlığı tərəfindən Azərbaycan Milli Ordusunda qulluq etməyə getmişdir.1994-cü il yanvar ayının 28-də Harami düzündə gedən döyüşlərin birində qəhrəmancasına həlak olmuşdur. Allah rəhmət eləsin!

ƏHMƏDOV İLTİFAT SƏMİD oğlu

Əhmədov İltifat 1973-cü ilin noyabr ayının 5-də Balakən kəndində anadan olmuşdur.1991-ci ilin mart ayının 15-də həqiqi hərbi xidmətə çağırılmışdır. Bir müddət keçdikdən sonra

Ağdərə bölgəsinə yollanmışdır.1992-ci ilin mart ayının 22-də Ağdərə bölgəsində gedən döyüşlərin birində həlak olmuşdur. Allah rəhmət eləsin!

ƏHMƏDOV NİYAZ TƏVƏKKÜL oğlu

Əhmədov Niyaz 1968-ci il yanvarın 18-də Bulduq kəndində anadan olub. 1986-1988-ci illərdə Murmansk şəhərində hərbi xidməti başa vuraraq serjant rütbəsi ilə vətənə qayıtmışdır. 1993-cü ilin fevralın 24-də könüllü olaraq əlinə silah alıb Tərtər bölgəsinə yola düşür. Elə ilk döyüşdə namərd erməni güllәsi Niyaza aman vermədi. 1993-cü ilin fevralın 28-də eloğlumuz Ağdərə bölgəsində igidliklə əbədiyyətə qovuşdu. Allah rəhmət eləsin!

ƏHMƏDOV QONSUR ƏHMƏD oğlu

Əhmədov Qonsur 1973-cü il sentyabr ayının 14-də Zəngənə kəndində anadan olmuşdur. 1990- cı ildə həqiqi hərbi xidmətə çağırılmışdır. 1993-cü il mart ayının 24-də Ağdam bölgəsində gedən ağır döyüşlər nəticəsində qəhrəmancasına həlak olmuşdur. Allah rəhmət eləsin!

ƏHMƏDOV RƏSUL EYVAZ oğlu

Əhmədov Rəsul 1970-ci ildə Nizamikənd kəndində anadan olmuşdur. 1992-ci ilin sentyabrın 20-də ümumi hərbi səfərbərliyə qoşularaq Ağdam bölgəsinə yollanmışdır. 1992-ci ilin oktyabrın 30-da cəbhənin Xanabad kəndi uğrunda gedən

döyüşlərin birində qəhrəmancasına həlak olmuşdur. Allah rəhmət eləsin!

ƏHMƏDOV VÜQAR ƏHMƏD oğlu

Əhmədov Vüqar 1974-cü ildə Sabirabad rayonunda anadan olmuşdur.1992-ci ilin may ayının 20-də Sabirabad rayonundan həqiqi hərbi xidmətə çağırılmışdır. İlk təlim keçdikdən sonra Şuşa hərbi batalyonuna yollanmışdır.Bir müddət Şuşanın müdafiəsindən sonra Ağdam rayonu Şelli kəndinə gətirilmişdir.1992-ci ilin avqust ayının 2-də Kəlbəcər rayonunun Murovdağ ətrafında gedən döyüşlərdə həlak olmuşdur.Keçmiş Mirbəşir Qasımov küçəsi hazırda şəhidin adını daşıyır. Allah rəhmət eləsin!

ƏKBƏROV ƏLƏŞRƏF ƏLƏSGƏR oğlu

Əkbərov Ələşrəf 1975-ci ildə Sabirabad rayonunun Həşimxanlı kəndində anadan olmuşdur.Noyabr 1993-cü ildə Milli Orduya hərbi xidmətə çağırılmış və Ağdam rayonunun Quzanlı kəndində hərbi xidmətdə olmuşdur. 27 fevral 1994-cü ildə Ağdam rayonunun Şelli kəndi uğrunda gedən döyüşlərdə həlak olmuşdur. Allah rəhmət eləsin!

ƏKBƏROV NAMİQ ƏZİZAĞA oğlu

Əkbərov Namiq 1963-cü ildə Rüstəmli kəndində dünyaya göz açmışdır. 1982-1984-cü illərdə Rusiyada həqiqi hərbi xidmətdə qulluq etmişdir. Hərbi səfərbərlik nəticəsində

Qarabağ bölgəsinə yola düşmüşdür. Bir neçə döyüş bölgəsində iştirak etmişdir. 1993-cü ilin yanvar ayının 14-də Ağdam zonasının Güllücə kəndi uğrunda gedən döyüşlər nəticəsində həlak olmuşdur. Allah rəhmət eləsin!

ƏLİYEV ARZU VAQİF oğlu

Əliyev Arzu 1965-ci il dekabr ayının 11-də Axtaçı kəndində anadan olmuşdur. 1972-1982-ci illərdə kənd orta məktəbində oxumuşdur. 1983-1985-ci illərdə Voronej şəhərində həqiqi hərbi xidmətdə qulluq etmişdir. 1993-cü ilin mart ayının 24-də könüllü olaraq Qarabağın müdafiəsinə qoşulmuşdur. 11 ay Zəngilan bölgəsindədüşmənə qarşı amansızlıqla vuruşmuşdur. 1994-cü ilin fevral ayının 1-də Füzuli ətrafında gedən döyüşlərdə həlak olmuşdur. Allah rəhmət eləsin!

ƏLİYEV AZƏR HÜSEYN oğlu

Əliyev Azər 23 dekabr 1968-ci ildə Sabirabad rayonunun Nizami kəndində anadan olmuşdur. Əliyev Azər baxmayaraq ki, boyuna və çəkisinə əsasən Sovet Ordusu sıralarına aparılmamışdır, atasından və anasında gizli könüllü olaraq Hərbi Komissarlığa ərizə verib. Füzuli rayonuna – döyüş bölgəsinə göndərilmişdir. Ağdərə rayonunda gedən döyüşlərdə iştirak edib. Həmin il həmin bölgədən Kəlbəcərə göndərildi. 7 fevral 1994-cü ildə Kəlbəcər uğrunda gedən döyüşlərdə həlak olmuşdur. Allah rəhmət eləsin!

ƏLİYEV BƏXTİYAR MƏZLUM oğlu

Əliyev Bəxtiyar 1974-cü ilin dekabr ayının 29-da Qalaqayın kəndində anadan olmuşdur. 1991-ci ilin noyabr ayında həqiqi hərbi xidmətə çağırılmışdır. Döyüşlərdə həmişə öndə gedər, döyüşçü dostlarını ruhlandırardı.1994-cü ilin yanvar ayının 24-də Füzuli bölgəsində gedən döyüşlərdə həlak olmuşdur. Allah rəhmət eləsin!

ƏLİYEV GÜNDÜZ ƏLİKRAM oğlu

Əliyev Gündüz 1974-cü il aprelin 16-da Quruzma kəndində anadan olub. 1992-ci ilin oktyabrın 15-də həqiqi hərbi xidmətə yola düşür. Bir müddət Gəncə batalyonunda xidmət edir. Gündüz bir çox döyüşdə iştirak edir. 1992-ci ilin avqustun 30-da Ağdərə bölgəsindəki döyüşlərdə qəlpə yarası alır və sağaldıqdan sonra yenidən döyüşçü dostlarının yanına qayıdır. 1994-cü il yanvarın 23-də Füzuli rayonunda Horadiz istiqamətində gedən döyüşlərin birində igid eloğlumuz Əliyev Gündüz Əlikram oğlu qəhrəmancasına şəhid oldu. Allah rəhmət eləsin!

ƏLİYEV İBRAHİM ƏLİHÜSEYN oğlu

Əliyev İbrahim 1968-ci il yanvar ayının 2-də Kürkəndi kəndində anadan olmuşdur. 1985-1988-ci illərdə Moldaviya Respublikasında həqiqi hərbi xidmətdə olmuşdur. 1992-ci illərdə Qarabağda azərbaycanlılara qarşı erməni vəhşiləri tərəfindən törədilən cinayətlərə tab gətirməyərək, martın 23-də könüllü olaraq Ağdam bölgəsinə yollanmışdır. Ağdamda gedən

döyüşlərdə İbrahim düşmənə xeyli zərbələr endirmişdir. 1992-ci ilin aprelin 25-də Ağdam zonasında gedən döyüşlərdə qəhrəmancasına həlak olmuşdur. Allah rəhmət eləsin!

ƏLİYEV ZƏBULLA XEYRULLA oğlu

Əliyev Zəbulla 1946-cı ildə Sabirabad rayonunun Kürkəndi kəndində anadan olmuşdur. 1968-ci ildə Hərbi xidməti yüksək hazırlıqlı tankçı kimi başa vurduqdan sonra doğma kəndinə qayıtmışdır. Bakıda 1990-cı ilin Qanlı Yanvar hadisələri zamanı düşmən tankının qarşısını alarkən həlak olmuşdur. Allah rəhmət eləsin!

ƏLİYEV ZAUR ƏLİXEYBƏR oğlu

Əliyev Zaur 1972-ci ildə Sabirabad rayonunun Quruzma kəndində anadan olmuşdur. 1990-1992-ci illərdə SSRİ Silahlı Qüvvələrində hərbi xidmətdə olub.Ərizə ilə könüllü olaraq 1992-ci il dekabrın 17-də Bakı şəhəri Nərimanov rayon Hərbi Komissarlığından Milli Ordu sıralarına getmişdir. 1993-cü ilin mayından Zəngilan və Qubadlı bölgələrində döyüşmüş, elə həmin il avqustun 19-da həlak olmuşdur. Doğma məktəbinə-Quruzma kənd orta məktəbinə Əliyev Zaur Əlixeybər oğlunun adı verilmişdir. Allah rəhmət eləsin!

ƏMƏNOV GÜNDÜZ ƏMƏNQULU oğlu

Əmənov Gündüz 1970-ci ildə fevral ayının 10-da Azadakənd kəndində anadan olmuşdur.1988-1990-cı illərdə

Rusiyada həqiqi hərbi xidmətini başa vurmuşdur. 1993-cü ilin iyul ayının 7-də hərbi səfərbərliyə qoşularaq Ağdam bölgəsinə yola düşmüşdür. İlk döyüşlərdə düşmənin amansız gülləsi Gündüzdən yan keçmədi.1993-cüil iyul ayının 21-də Ağdamın Şelli kəndi uğrunda gedən döyüşlərin birində həlak olmuşdur. Allah rəhmət eləsin!

ƏNNAĞIYEV HİLAL ƏLİAĞA oğlu

Ənnağıyev Hilal 1aprel 1970-ci ildə Sabirabad rayonunun Qasımbəyli kəndində anadan olmuşdur.1988-1990-cıillərdə Sovet Ordusunda hərbi xidmətdə olmuşdur.1994-cü ildə yanvar ayında könüllü olaraq Qarabağa getmişdir. Murovdağda vuruşmuş, yanvar ayının 15-də qəhrəmancasına həlak olmuşdur. Qasımbəyli kənd orta məktəbi şəhidin adını daşıyır. Allah rəhmət eləsin!

ƏSƏDOV MÜSALİB YƏHYA oğlu

Əsədov Müsalib 17 iyul 1975-ci ildə Sabirabad rayonu Quruzma sovetliyinin Qaraqaşlı kəndində anadan olmuşdur. 1993-cü ilin 20 iyulunda Sabirabad rayon Hərbi Komissarlığı tərəfindən ordu sıralarına çağırılmışdır. Üç ay təlim keçdikdən sonra 130 N-li hərbi hissənin tərkibində Tərtər döyüş bölgəsində döyüşmüşdür. O, bir ilə yaxın müntəzəm döyüşlərdə iştirak etməsinə baxmayaraq, bir dəfə də olsun güllə yarası almamışdır. 1994-cü ilin aprel ayının 11-də Tərtər rayonu Çaylı kəndi uğrunda gedən döyüşlərdə itkin düşmüşdür.

ƏSGƏROV NİZAMİ ƏLİFƏTTAH oğlu

Əsgərov Nizami 1975-ci il fevral ayının 11-də Axtaçı kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra, 1994-cü ilin yanvarın 3-də hərbi xidmətə çağırılmışdır.Hərbi xidmətə gedəndən 1 ay sonra Murovdağa yola düşmüşdür. 1994-cü ilin aprelin 20-də Murovdağ ətrafında gedən döyüşlərdə həlak olmuşdur. Allah rəhmət eləsin!

ƏSGƏROV SƏYYAD HACIAĞA oğlu

Əsgərov Səyyad 1974-cü ilin fevral ayının 14-də Minbaşı kəndində anadan olmuşdur.1993-cü ilin dekabr ayının 5-də həqiqi hərbi xidmətə çağırılmışdır. Düşmənə qarşı çox amansız idi. Onun son döyüşü 1994-cü ildə Tərtər rayonu ərazisində olmuşdur. Allah rəhmət eləsin!

ƏSGƏROV KAMİL AĞAKƏRİM oğlu

Kamil Əsgərov 1967-ci il mayın 7-də Sabirabad rayonunun Xəlfəli kəndində anadan olub (hal-hazırda ailəsi Nizami kənddə yaşayır). 24 iyul 1993-cü ildə Sabirabad rayon Hərbi Komissarlığı tərəfindən Milli Ordu sıralarına göndərilmişdi. Kamil Əsgərov 15 avqust 1993-cü il Füzuli rayonunun Yağlıvənd kəndi uğrunda gedən döyüşlərdə iştirak etmiş, itkin düşmüşdür. Kamil Əsgərov cəbhə bölgəsinə gedəndə ailəli idi. Röya adında bir oğlu var idi. Ata həsrəti ilə yaşayan Röya nigaran gözlərini yollardan yığmır atam nə

vaxtsa qayıdacaq deyə düşünür. Röya anası Nigar xanıma təsəlli və ümid yeridir.

FƏRƏCOV ELMAN ABBAS oğlu

Fərəcov Elman 1974-cü il iyun ayının 1-də Şəhriyar kəndində anadan olmuşdur. 1992-ci ilin oktyabr ayında Hərbi Komissarlıq tərəfindən hərbi xidmətə çağırılmışdır.Hərbi təlimdən sonra Elmangilin rotasını Laçın bölgəsinə gətirmişdilər. 1992-ci ilin dekabr ayının 1-də Laçın uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olmuşdur. Kənd xəstəxanası hazırda şəhidin adını daşıyır. Allah rəhmət eləsin!

FƏRƏCOV NƏSİMİ SABİR oğlu

Fərəcov Nəsimi 10.iyul.1975-ci ildə Sabirabad rayonunun Qaragüney kəndində anadan olmuşdur.O, 1994-cü ildə Qarabağa getmiş, bir neçə döyüşdə iştirak etmişdir. Vətənini canından artıq sevən Nəsimi Fərəcov cəbhənin 1994-cü ildə Tərtər bölgəsi ərazisində erməni işğalçı qüvvələri gedən döyüşlərin birində döyüşlərində itkin düşmüşdür.

FƏRZULLAYEV VAQİF ULDUZ oğlu

Vaqif Fərzullayev 1967-ci ildə Sabirabad rayonunun Qalaqayın kəndində anadan olub. 1985-1987-ci illərdə Rusiyada həqiqi hərbi xidmətini başa vurub. Hərbi xidməti başa vurduqdan sonra Sabirabad rayon Polis Şöbəsində

mühafizə bölməsində işə düzəlmişdir. Erməni işğalçıları torpaqlarımıza hücum edən zaman Vaqif 1993-cü ildə könüllü olaraq döyüş meydanına getmişdir. Füzuli bölgəsində Ağdamın müdafiəsi uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Son döyüşü Şiştəpə yüksəkliyi uğrunda gedən döyüşlərdə oldu. 1994-cü il aprel ayının 20-də o, şəhid oldu. Onu qeyd etmək istərdim ki, Fərzullayev ailəsinin iki üzvü həmin günü 20 aprel 1994-cü ildə şəhidlik zirvəsinə ucaldı. Vaqifin özündən 7 yaş kiçik olan qardaşı Zakir Fərzullayev Qarabağ uğrunda gedən döyüşlərdə düşmən gülləsinə tuş gəldi. Allah rəhmət etsin igid qardaşlarımıza!

FƏRZULLAYEV ZAKİR ULDUZ oğlu

Zakir Fərzullayev 1974-cü ildə Sabirabad rayonunun Qalağayın kəndində anadan olub. 1994-cü ildə Sabirabad rayonunun Hərbi Komissarlığından hərbi xidmətə çağırılmışdır. Zəngilan, Tərtər, Qubadlı bölgəsində torpaqlarımızın toxunulmazlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Son döyüşü Tərtər rayonunun Səhlabad kəndində olmuşdur. 20 aprel 1994-cü ildə qəhrəmancasına şəhid olmuşdur. Həmin gün böyük qardaşı Vaqif Fərzullayev düşmən gülləsinə sinəsini sipər edərək şəhid olmuşdur. Hər iki cəsur qardaş biri-birindən xəbərsiz dünyalarını dəyişmişdilər. Sabirabad rayonunda 20 Yanvar küçəsindəki parkda Vətən uğrunda canından keçmiş bu iki qardaşın büstü qoyulmuşdur. Allah rəhmət eləsin!

GÖZƏLOV MURADXAN ZİYADXAN oğlu

Muradxan Gözəlov 1974-cü ildə Sabirabad rayonu Mürsəlli kəndində anadan olub. 1991-ci ildə Bakı Pişəvəri adına Fars dili Gimnaziyasını bitirmişdir. Həmin ildə Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin fars filologiyasışöbəsinə daxil olmuşdur. 1992-ci il BDU-dan könüllü olaraq cəbhəyə yollanmışdır. Onun döyüş yolu Laçın və Qubadlı rayonlarından keçmişdir. Qubadlının Çardaxlı və Parvolu kəndi üzərində manevr edən düşmənin hərbi helikopterinin vurulmasında fəal iştirakı ilə seçilmişdir. 1992-ci ilin iyul ayının 2-də Səfiyan kəndində gedən qızğın döyüşlərdə şəhidlik zirvəsinə ucalmışdır.

Şəhidimiz Muradxanın anası üzü nurlu Hökümə xanımla söhbət edərkən gözlərinə çökən kədəri aydın sezmək olurdu. Bir onu söyləndi şəhid anası – "Muradxanım bizə demədən, bizim xəbərimiz olmadan könüllü getmişdi müharibəyə, onun üçün biz sarıdan narahatçılığı var idi. Söyləyibmiş ki, anam halal etsin mənə bu atdığım addım üçün. Oğul balam, halal, halal xoşun olsun. Vətən üçün, torpaqlarımız üçün şəhid oldun. Allah sənə rəhmət eləsin, oğlum və cəmi şəhidlərin ruhu şad olsun!".

Muradxan və Muradxan kimi minlərlə qəhrəman şəhidlərimiz millətin, xalqın, gələcəyi uğrunda ömrünün çiçəklənən dövründə əbədiyyətə qovuşdular. Övlad dağına dözmək çətindir. Elə buna görə də, şəhid ailələrinə başınızı uca tutun deyirik! Sizin Vətən sevgisi ilə böyüdüb tərbiyə etdiyiniz övladlarınız Vətən üçün canlarını fəda etdilər!

HAQVERDİYEV FAİQ LƏTİF oğlu

Haqverdiyev Faiq 16 yanvar 1977-ci ildə Sabirabad rayonunda Qaragünə kəndində anadan olmuşdur. 1995-ci il iyul ayının 30-da Milli Orduya getmişdir. İlk xidmətinə Gəncə şəhərindən başlamışdır. Haqverdiyev Faiq Lətif oğlu 1966-cıildə Goranboy rayonunun Borsulu kəndində döyüş bölgəsində öz hərbi xidmətini yerinə yetirərkən şəhid olmuşdur. Allah rəhmət eləsin!

HƏMİDOV HEYDƏR RZA oğlu

Heydər Həmidov 1962-ci ildə Sabirabad rayonunda anadan olmuşdur. 1982-84 cü illərdə Sovet ordusu sıralarında hərbi xidmətini başa vurmuşdur. O, torpaqlarımız təcavüzə məruz qalan olan ilk gündən könüllü olaraq ön cəbhəyə yola düşür. Ağdam, Goranboy, Şuşa özünümüdafiə dəstələrində erməni hücumlarının qarşısının alınmasında igidliklə iştirak etmişdir. "Şuşa hərbi batalyonu" təşkil olunduğu gün 1992-ci il fevralın 2-də mənfur düşmənlər tərəfindən qətlə yetirilir. Komandirinə tuşlanan güllənin qarşısına sinəsini sipər edərək şəhidlik zirvəsinə ucalır. Allah rəhmət eləsin!

HƏMİDOV MİRNİYAZ SEYİDƏLİ oğlu

Həmidov Mirniyaz 1968-ci il oktyabrın 4-də Sabirabad rayonunun Kovlar kəndində anadan olmuşdur.1987-1989-cu illər sovet ordusunda həqiqi hərbi xidməti başa vurmuşdur. 1992-ci il oktyabr ayının 8-də Sabirabad rayon Hərbi

Komissarlığı tərəfindən Qarabağ bölgəsinə göndərilmişdir. İlk döyüşü Qacar kəndindən başlamışdır. Onun son döyüşü Məngələnatə yüksəkliyi uğrunda olmuşdur. 1993-cü il iyul ayının 28-də aldığı güllə yarasından həlak olmuşdur. Oxuduğu Axıxa kənd orta məktəbinə onun adı verilmişdir. Allah rəhmət eləsin!

HƏMİDOV NATİQ ƏLİZADƏ oğlu

Həmidov Natiq 1972-ci ildə Poladtoğay kəndində anadan olmuşdur. 1992-ci il noyabr ayının 3-də həqiqi hərbi xidmətə çağırılmışdır. Ağdərə və Tərtər bölgələrində düşmənə raket qurğusundan layiqli cavab verərək komandirlərinin rəğbətini qazanmışdır.1994-cü ilin yanvar ayının 22-də Ağdərə ətrafında gedən döyüşlərdə qəhrəmancasına həlak olmuşdur. Allah rəhmət eləsin!

HƏSƏNOV FAİQ ƏLİ oğlu

Həsənov Faiq 1974-cü il dekabr ayının 30-da Sabirabad rayonu Suqovuşan kəndində anadan olmuşdur. Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev cənablarının müraciətindən sonra 1994-cü ilin yanvar ayının 3-də Sabirabad rayonu Hərbi Komissarlığından Milli Ordu sıralarına xidmət etmək üçün yola düşmüşdür. Füzuli rayonu Əbdülrəhmanlı kəndi ətrafında gedən ağır döyüşlərdə iştirak etmişdir. Həmin döyüşdə Faiq naməlum şəkildə itkin düşmüşdür.

HƏSƏNOV HƏBİB ƏLİSÖHBƏT oğlu

Həsənov Həbib 1971-ci il dekabr ayının 26-da Qaratuğay kəndində anadan olmuşdur. 1990-1992-ci illərdə Latviya Respublikasında həqiqi hərbi xidmətdə qulluq etmişdir. 1992-ci ilin sentyabr ayının 20-də Vətənin müdafiəsinə qalxmışdır. Bir neçə döyüş bölgələrində yaxından iştirak etmişdir. 1993-cü ilin fevral ayının 9-da Ağdərə rayonunun Mehmanə kəndi uğrunda gedən döyüşlərdə həlak olmuşdur. Allah rəhmət eləsin!

HƏSƏNOV NİYAMƏDDİN SAHİB oğlu

Niyaməddin Həsənov 1975-ci il yanvarın 3-də Sabirabad rayonu Nəriman kəndində anadan olmuşdur. 1993-cü ildə Sabirabad rayonunun Hərbi Komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılmışdır. Füzuli rayonu istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. 1993-cü ilin avqustun 14- də Füzuli rayonunun Kövşənli kəndi uğrunda gedən döyüşlərdə şəhid olmuşdur. Allah rəhmət eləsin!

HƏSƏNOV VÜQAR TELMAN oğlu

Həsənov Vüqar 1973-cü il aprelin 21-də Muğangəncəli kəndində anadan olmuşdur. 1990-cı ildə orta məktəbi bitirib Qazaxıstan Respublikasına həqiqi hərbi xidmətə yollanmışdır. 1 ildən sonra Vətənə qayıdaraq hərbi xidmətini Qarabağda keçirməyə başlamışdır. Cəsur döyüşçü 1993-cü ilin iyun ayının

6-da cəbhənin Füzuli rayonu ərazisində gedən döyüşlərin birində qəhrəmancasına həlak olmuşdur. Allah rəhmət eləsin!

HEYDƏROV QORXMAZ MƏTLƏB oğlu

Heydərov Qorxmaz 1975-ci ildə Zəngənə kəndində anadan olmuşdur. 1982-1992-ci illərdə kənd orta məktəbində oxumuşdur. Hərbi təlimin sirlərinə bələd olduqdan sonra Tərtər bölgəsinə yollanmışdır.1994-cü il aprel ayının 22-də Kəlbəcərin alınması uğrunda gedən mübarizədə qəhrəmanlıq göstərərək həlak olmuşdur. Allah rəhmət eləsin!

HÜSEYNOV AZAD MƏMMƏDAĞA oğlu

Hüseynov Azad 1968-ci il aprel ayının 15-də Sabirabad rayonunun Osmanlı kəndində anadan olmuşdur. Azad 1986-cı ildə Sovet Ordusu sıralarına hərbi xidmətə getmişdir. Hərbi xidmətini Kuybışev vilayətində başa vurmuşdur. Milli Ordu sıralarına 1993-cü ildə getmişdir. O, Ağcabədi-Martuni istiqamətində gedən döyüşlərdə 4 yanvar 1994-cü ildə itkin düşmüşdür.

HÜSEYNOV EMİN BƏKİR oğlu

Hüseynov Emin 1973-cü ilin noyabr ayının 7-də Qarağac kəndində anadan olmuşdur. 1991-ci ilin mart ayının 17-də həqiqi hərbi xidmətə çağırılmışdır. Kəlbəcərin müdafiəsində Emin əsl döyüşçü kimi vuruşaraq erməni qəsbkarlarına böyük zərbələr yetirmişdir.1992-ci ilin iyul ayının 7-də Kəlbəcərin

Qılınclı kəndi uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olmuşdur. Allah rəhmət eləsin!

HÜSEYNOV MURAD TEYMUR oğlu

Hüseynov Murad 1976-cı ildə Sabirabad rayonunun Əsgərbəyli kəndində anadan olmuşdur. 1994-cü ildə həqiqi hərbi xidmətə çağırılmışdır. 1996-cı ildə Füzuli bölgəsində hərbi qarovulda duran zaman ermənilər tərəfindən atılan güllə yarasından həlak olmuşdur. Hazırda Əsgərbəyli kənd orta məktəbi şəhidin adını daşıyır. Allah rəhmət eləsin!

HÜSEYNOV RÖVŞƏN QULAM oğlu

Hüseynov Rövşən 1973-cü ilin mart ayının 11-də Nizamikənd kəndində dünyaya göz açmışdır. 1992-ci ildə Rusiyadan geri qayıdaraq may ayında yenidən könüllü surətdə Qarabağın erməni faşistlərindən təmizlənməsi uğrunda mübarizəyə qoşulmuşdur. 1992-ci ilin iyunun 22-də Ağdamın Qazançı kəndi uğrunda gedən döyüşlərdə Rövşən quduz erməni snayperinin güllәsinə tuş gəlmişdir. Allah rəhmət eləsin!

HÜSEYNOV ZAUR BABAHÜSEYN oğlu

Hüseynov Zaur 1975-ci ilin oktyabr ayının 3-də Kovlar kəndində anadan olmuşdur. 1993-cü ilin oktyabr ayının 8-də Sabirabad rayon Hərbi Komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılmışdır. Füzuli rayonunun ərazisində yerləşən "N" saylı hərbi hissəyə göndərilmişdir. 1994-cü ilin yanvar

ayının 10-da Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndində itkin düşmüşdür.

HÜSEYNOV MÜŞVİQ RÜSTƏM oğlu

Hüseynov Müşviq 1975-ci ildə Nəriman kənddə anadan olub. Həqiqi hərbi xidmətə çağırılmış, 1994-cü ilin aprelin 24-də Tərtər istiqamətində gedən döyüşlərdə itkin düşmüşdür.

XANIŞOV MÖVLAN MƏMMƏD oğlu

Xanışov Mövlan 1969-cu il yanvarın 25-də Qaratəpə kəndində dünyaya göz açmışdır. 1989-cu ilin noyabr ayından könüllü olaraq Qarabağ torpağının müdafiəsində iştirak etmiş, ermənilər tərəfindən 31 yanvar 1992-ci il tarixdə vəhşicəsinə öldürülmüşdir. Allah rəhmət eləsin!

XANKİŞİYEV DAVUD MƏNNİoğlu

Xankişiyev Davud 1 yanvar 1975-ci ildə Sabirabad rayonunun Şıxlar kəndində anadan olmuşdur. 1993-cü ilin may ayında Milli Ordu sıralarına çağırılmşdır. Milli Ordunun təlim sirlərini öyrəndikdən sonra onu cəbhə bölgəsinə yollamışdılar. Davud Xankişiyevin döyüş yolu Ağdam rayonundan başlamışdır. 1994-cü ildə Ağdam rayonunun Güllücə kəndində gedən döyüşlərdə itkin düşmüşdür. Hələ indiyə qədər onun haqqında heç bir məlumat yoxdur.

XANKİŞİYEV LOĞMAN BALA oğlu

Xankişiyev Loğman 1965-ci ildə Poladtoğay kəndində anadan olub. 1985-ci ildə Tümen şəhərinə işləməyə göndərilib.1993-cü ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrində həqiqi hərbi xidmətə çağırılıb. 1994-cü ilin aprel ayının 28-də Daşburunda yaralanır aldığı yara ölüm yaralarımış. Allah rəhmət eləsin!

XANKİŞİYEV MEHDİ SƏFA oğlu

Xankişiyev Mehdi 1973-cü ilin avqust ayının 20-də Poladtoğay kəndində anadan olmuşdur. 1991-ci il iyun ayının 20-də həqiqi hərbi xidmətə çağırılmışdır. Döyüş bölgələrində düşmənə layiqincə cavab vermişdir. Mehdinin son döyüşü 1992-ci ilin oktyabr ayının 5-də Ağdamın Qazançı kəndində olmuşdur. Bu döyüşdə Mehdi ağır yaralanır, həkimlərin böyük səylərinə baxmayaraq oktyabrın 19-u gecə döyüşçümüz həlak olmuşdur.Allah rəhmət eləsin!

XANKİŞİYEV SƏRHƏD HACIAĞA oğlu

Xankişiyev Sərhəd 1974-cü il avqust ayının 19-da **Qəzli** kəndində anadan olmuşdur. 1993-cü ilin sentyabr ayının 25-də həqiqi hərbi xidmətə çağırılmışdır. İlk hərbi təlimi Şəmkir rayonunda yerləşən "N" saylı hərbi hissəsində keçirilmişdir. Hərbi təlimi keçdikdən sonra döyüş bölgəsinə yola düşmüşdür. Bir neçə döyüş bölgələrində iştirak etmişdir. 1994-cü ilin yanvar ayının 26-da Füzuli rayonunun Yuxarı Seyidəhmədli

kəndi ətrafında gedən döyüşlərdə qəhrəmancasına həlak olmuşdur. Allah rəhmət eləsin!

XANLAROV ƏLİF İNQİLAB oğlu

Xanlarov Əlif 1974-cü ildə Yaxadəllək kəndində dünyaya gəlmişdir. 1992-ci ildə həqiqi hərbi xidmətə çağırılmışdır.

1994-cü ilin yanvar ayının 27-də Füzuli rayonunun Horadiz qəsəbəsində gedən döyüşlərdə həlak olmuşdur. Yaxadəllək kənd orta məktəbi şəhidin adını daşıyır. Allah rəhmət eləsin!

XƏLƏFOV AQŞİN ARİF oğlu

Xələfov Aqşin 13 fevral 1976-cı ildə Sabirabad rayonunun Güdəcühür kəndində anadan olmuşdur. Aqşin yaşıdları kimi 1 aprel 1994-cü ildə Sabirabad rayon Hərbi Komissarlığından həqiqi hərbi xidmətə yollandı. Goranboy bölgəsində hərbi xidmətdə oldu. Hərbi xidmətini layiqincə yerinə yetirdi. 10 oktyabr 1995-ci ildə döyüş tapşırığını yerinə yetirərkən minaya düşərək həlak olmuşdu. Allah rəhmət eləsin!

XƏLİLOV CƏLAL ELDAR oğlu

Xəlilov Cəlal 1973-cü ilin avqust ayının 15-də Çağırqan kəndində anadan olmuşdur. 1992-ci ilin may ayının 7-də həqiqi hərbi xidmətə çağırılmışdır. 1992-ci ilin iyun ayının 13-də bir neçə gün Ağdam bölgəsində vuruşduqdan sonra Ağdərə bölgəsinə göndərilmişdir.1922-ci ilin iyun ayının 25-də Ağdərə

ərazisində gedən döyüşlərdə həlak olmuşdur. Allah rəhmət eləsin!

XƏLİLOV YASƏR EMADİoğlu

Xəlilov Yasər 1969-cu il avqust ayının 10-da Qaratoğay kəndində dünyaya gəlib. Rusiyada hərbi hissələrdə qulluq etmişdir. 1992-ci ildə hərbi səfərbərliyə qoşularaq, əlinə silah götürərək Qarabağa yollanmışdır. 1993-cü il aprelin 2-də Füzuli rayonunun Gövşad kəndi uğrunda gedən döyüşdə həlak oldu. Allah rəhmət eləsin!

İBADOV HÖRMƏT EYNULLA oğlu

İbadov Hörmət 1975-ci il sentyabrın 27-də Qəzli kəndində anadan olub. 1983-1993-cü illərdə orta məktəbi qurtarıb. 1993-cü ilin oktyabrın 7-də növbəti hərbi çağırışa qoşulub. Kəlbəcər bölgəsində bir neçə odlu-alovlu nöqtələrdə öz çevikliyi ilə döyüşçü yoldaşlarının hörmətini qazanmışdır. 1994-cü ilin fevralın 7-də Kəlbəcər istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Allah rəhmət eləsin!

İBRAHİMOV ƏMRULLA RUFULLA oğlu

İbrahimov Əmrulla 1964-cü il iyunun 1-də Quruzma kəndində anadan olub. 1992-ci ildə könüllü olaraq silaha sarılaraq Vətənin müdafiəsinə yollanır. Onun döyüş yolu bir sıra bölgələrdən keçir. 1994-cü il yanvarın 27-də Füzulidə, Seyidəhmədli, Şişqaya ətrafında gedən ağır döyüşlərdə igid

eloğlumuz İbrahimov Əmrulla Rufulla oğlu qəhrəmancasına əbədiyyətə qovuşdu. Allah rəhmət eləsin!

İBRAHİMOV MEHDİ ŞAHBAZ oğlu

İbrahimov Mehdi 1973-cü il fevral ayının 28-də Sabirabad rayonunda anadan olmuşdur. 1992-ci ilin aprel ayında həqiqi hərbi xidmətə çağırılmışdır.1992-ci ilin iyun ayının 20-də Naxçıvanik uğrunda gedən qızğın döyüşlərdə həlak olmuşdur. Allah rəhmət eləsin!

İMANOV FARİZ İSBAR oğlu

İmanov Fariz 1970-ci ildə 5 oktyabr Moranlı kəndində anadan olmuşdur. 1988-ci ilin may ayından Sovet Ordusuna yollanıb.İki il qulluq etdikən sonra Vətənə qayıtmışdır. 1993-cü ilin mart ayında Fariz itkin düşmüşdür.

İSAYEV CAVİD MURAD oğlu

İsayev Cavid 5 yanvar 1974-cü ildə Sabirabad rayon Bulduq kəndində anadan olmuşdur. 1992-ci ilin iyun ayının 15-də Azərbaycan Milli Ordusuna hərbi xidmətə getmişdir. Qubadlı və Laçın bölgələrində döyüşlərdə iştirak etmişdir. 1993-cü ilin avqust ayının 31-də Qubadlı rayonu ərazisində itkin düşmüşdür.

İSGƏNDƏROV FAİQ NÜRƏDDİN oğlu

İsgəndərov Faiq 1974-cü il oktyabrın 14-də Qəzli kəndində anadan olmuşdur. 1992-ci ilin oktyabrın 17-də Əli-Bayramlı şəhərinin Hərbi Komissarlığından hərbi xidmətə çağırılmışdır.1993-cü ilin fevralın 13-də Füzuli bölgəsinə yola düşmüşdür. 1993-cü il iyulun 6-da Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Allah rəhmət eləsin!

İSLAMOV RAMAZAN BƏYBALA oğlu

İslamov Ramazan 1968-ci il yanvar ayının 20-də Moranlı kəndində anadan olmuşdur. 1987-1989-cu illərdə Rusiyada hərbi xidmətdə olmuşdur.1993-cü ilin iyul ayının 28-də könüllü olaraq Qarabağa yollanmışdır. 1993-cü ilin avqust ayının 7-də Füzuli istiqamətində gedən döyüşlərdə həlak olmuşdur. Allah rəhmət eləsin!

İSMAYILOV NİYAZİ EHTİBAR oğlu

Niyazi İsmayılov 1974-cü ilin fevral ayının 2-də Əlicanlı kəndində anadan olub. 1992-ci ilin mayın 27-də Hərbi Komissarlıq tərəfindən hərbi xidmətə çağırılmışdır. Kəlbəcər bölgələrində xüsusi xidmətlər göstərmişdir. 1994-cü ilin aprel ayının 23-də cəbhənin Tərtər-Goranboy ətrafında gedən döyüşlər nəticəsində qəhrəmancasına həlak olmuşdur.

İSMAYILOV NİZAM ƏLFİoğlu

İsmayılov Nizam 1974-cü il sentyabr ayının 2-də Əhmədabad kəndində anadan olub. Məktəbi bitirdikdən sonra hərbi xidmətə çağırılmışdı. 1993-cü ilin oktyabrında Ağcabədi rayonunun Ovşar kəndində torpaqlarımızın qorunması uğrunda döyüşlərdə iştirak etmişdir. Son döyüşü 1994-cü ilin fevralın 10-da Füzulidə gedən döyüşlərdə oldu. Bu ağır döyüşlərdə qəhrəman eloğlumuz Nizam son damla qanına qədər döyüşərək əbədiyyətə qovuşdu. Allah rəhmət eləsin!

İSMAYILOV MAHİR MƏMMƏD oğlu

İsmayılov Mahir 1973-cü ilin iyun ayının 27-də Poladtoğay kəndində anadan olmuşdur.1992-ci ilin yanvar ayının 12-də həqiqi hərbi xidmətə çağırılmışdır. Hərbi xidmətdə sürücü kimi qulluq etdikdən sonra Ağdam bölgəsinə yollanmışdır. 1992-ci ilin noyabrın 15-də Ağdam bölgəsində həlak olmuşdur. Allah rəhmət eləsin!

İSMAYILOV NƏRİMAN CƏFƏR oğlu

İsmayılov Nəriman 1975-ci il mart ayının 22-də Şəhriyar kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra həqiqi hərbi xidmətə çağırılmışdır. 1993-cüilin iyun ayında Ağdam bölgəsində gedən qanlı döyüşdə əsl qəhrəmanlıq göstərərək həlak olmuşdur. Allah rəhmət eləsin!

İSMAYILOV QULAM MƏTLƏB oğlu

İsmayılov Qulam 1969-cu il oktyabr ayının 3-də Sabirabad şəhərində anadan olmuşdur. Hərbi xidmətini Rusiyada başa vurmuşdur.Ermənilərin vəhşiliklərinə, ərazilərimizin işğal olunmasına dözməyən Qulam könüllü olaraq Füzuli bölgəsinə azğın düşmənə qarşı vuruşmağa yollanır. Qulam Füzulinin Arış kəndi uğrunda gedən döyüşdə 1992-ci ilin may ayının 24-də qəhrəmancasına şəhid olmuşdur.Qulam İsmayılovun adı əbədiləşdirilərək tərbiyə aldığı 1 saylı uşaq bağçasına verilmişdir. Allah rəhmət eləsin!

İSMAYILOV RƏMZİ MÖHÜBBƏT oğlu

İsmayılov Rəmzi 1973-cü ilin avqust ayının 25-də Sabirabad şəhərində anadan olmuşdur.16 aprel 1992-ci ildə Milli Ordu sıralarına həqiqi hərbi xidmətə çağırılmışdır. Milli Ordu sıralarında hərbi xidmətə "N" saylı hərbi hissədə başlamışdır. 1992-ci ilin sonunda hərbi hissə dağılmışdır. 30 dekabr 1993-cü ildə yenidən könüllü olaraq Füzuli bölgəsində "N" hərbi hissədə xidmətini davam etdirmişdir.1994-cü ilin yanvar ayının 9-da Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndi istiqamətində gedən döyüşdə itkin düşmüşdür.

İSRAFİLOV BƏŞİR QASIM oğlu

İsrafilov Bəşir 1973-cü il mart ayının 23-də Qaragünə kəndində anadan olmuşdur. 1993-cü ilin noyabr ayında həqiqi hərbi xidmətə çağırılmışdır.İlk günlər Füzuli bölgəsinə yola

düşmüşdür. 1994-cü ilin yanvarın 16-da Füzuli rayonunda gedən döyüşlərdə həlak olmuşdur. Allah rəhmət eləsin!

KAZIMOV MİRCƏLAL MİRVAQİF oğlu

Kazımov Mircəlal 1974-cü ilin noyabr ayının 2-də Şıxsalahlı kəndində anadan olmuşdur. 1992-ci il noyabr ayının 3-də həqiqi hərbi xidmətə çağırılmışdır. Bir neçə müddət hərbi sirlərə bələd olduqdan sonra Qarabağ bölgəsinə yollanmışdır. 1994-cü ilin may ayının 8-də Talış kəndi uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olmuşdur. Ölümündən sonra Fəxri Fərmanla təltif olunmuşdur. Allah rəhmət eləsin!

KƏRİMOV VÜQAR NƏRİMAN oğlu

Kərimov Vüqar 1972-ci il dekabrın 18-də Qaratəpə kəndində dünyaya göz açmışdır. Samara şəhərində altı ay hərbi xidmətdə olduğu zaman da Qarabağdakı hadisələri izləmiş və ermənilərin törətdikləri vəhşiliklərə dözməyərək hərbi hissədən qaçmışdır. 1989-cu ildən Qarabağın müdafiəsində dayanan həmkəndliləri Xanışov Mövlan, Əhmədov Mübariz, Mehdiyev İlqar və başqalarılə erməni quldurlarına qarşı vuruşmuşdur. Xramord kəndi alınandan sonra31 yanvar 1992-ci ildə Xanabad döyüşündə yaralanmış, şəhid olmuşdur. Allah rəhmət eləsin!

KƏRİMOV BAYRAM HƏTƏMXAN oğlu

Kərimov Bayram 15 yanvar 1971-ci ildəNizami kəndində anadan olmuşdur. 1993-cü il 30 apreldə erməni qəsbkarlarının

zülmünə dözməyib könüllü olaraq müharibəyə yola düşmüşdür. Kərimov Bayram 10 ay erməni qəsbkarlarına qarşı öz sinəsini sipər çəkmişdir.1994-cü ilin fevral ayının 17-də Ağdam rayonunun Sarıcalı təpəsinə hücum zamanı qəhrəmancasına həlak olmuşdur. Allah rəhmət eləsin!

KƏRİMOV SAMİR NADİR oğlu

Kərimov Samir 1975-ci ildə Yenikənd kəndində anadan olub. 1994-cü ildə həqiqi hərbi xidmətə çağırılıb. Həmin vaxtlar Füzuli bölgəsində də vəziyyət olduqca gərgin idi.1994-cü ilin aprel ayında hərbi hissə Tərtər ətrafında gedən döyüşlərə cəlb olundu. Seysulan kəndi uğrunda gedən döyüşlərdə Samir Kərimov da iştirak edirdi. Həmin döyüşdə bu qorxmaz, mərd döyüşçü itkin düşdü.

KƏRİMOV VÜQAR NƏRİMAN oğlu

Kərimov Vüqar 1972-ci il dekabrın 18-də Qaratəpə kəndində anadan olmuşdur. Samara şəhərində altı ay hərbi xidmətdə olduğu zaman da Qarabağdakı hadisələri izləmiş və ermənilərin törətdikləri vəhşiliklərə dözməyərək hərbi hissədən qayıtmışdır. Xromort kəndi alınandan sonra Xanabad döyüşündə yaralanmış, həlak olmuşdur. Allah rəhmət eləsin!

KƏRİMOV XƏQANİ CANƏLİ oğlu

Kərimov Xəqanəli 1974-cü ildə martın 8-də Nizami kəndində anadan olub.1981-1989-cu illərdə Nizami kənd orta

məktəbinin 8-ci sinfini qurtarıb.Kərimov Xəqani Canəli oğlu 1992-ci ilin may ayında həqiqi hərbi xidmətə çağırılıb.08.06.1993-cü ildə Ağdama döyüş bölgəsinə göndərilib. 16.06.1993-cü il tarixdən Kərimov Xəqani Canəli oğlu itkin düşüb.

QARAYEV NOVRUZ MÜRSƏL oğlu

Novruz Qarayev 1970-ci il martın 21-də Sabirabad rayonunun Nəriman kəndində anadan olub. 1990-cı il Sabirabad rayonunun Hərbi Komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılmışdır. 1992-ci il hərbi xidməti başa çatsa da, ürəyi vətənlə döyünən Novruz könüllü olaraq ön cəbhəyə gedir. Tərtər –Ağdərə istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. 1993-cü il mart ayının 22-də Ağdərə istiqamətində gedən döyüşdə şəhid olmuşdur. Allah rəhmət etsin!

QASIMOV ELŞƏN QÜDRƏT oğlu

Qasımov Elşən 1972-ci ildə Sabirabad rayonunda anadan olmuşdur.1990-cı ilin noyabr ayında Almaniya Respublikasında həqiqi hərbi xidmətə çağırılmışdır. Sovet Ordusunun dağılması ilə əlaqədar Almaniyadan Moskvaya hərbi xidmətini davam etdirmək üçün gətirilmişdir.1992-ci ilin may ayında Sabirabad rayonundan Azərbaycan Milli Ordu sıralarına yollanmışdır. İlk döyüşü Laçın rayonundan başlanmışdır. Kürdhacı və Hocaz yüksəkliyi uğrunda gedən döyüşlərdə fəal iştirak etmişdir. Bu yüksəklik uğrunda gedən döyüşlərin

birində Elşən Qasımov mərdliklə həlak olmuşdur. Hazırda M.Ə.Sabir adına küçə şəhid Qasımov Elşən Qüdrət oğlunun adını daşıyır. Allah rəhmət eləsin!

QASIMOV FƏQAN FƏXRƏDDİN oğlu

Qasımov Fəqan 1975-ci il may ayının 30-da Qəzli kəndində anadan olub. 1993-cü ilin iyul ayının 1-də həqiqi hərbi xidmətə çağırılıb.Cəbrayıl, Zəngilan bölgələrində gedən döyüşlərdə iştirak etmişdir. Füzulinin Haramı düzündə onu çox ağır döyüşlər gözləyirdi. 1994-cü il 24 aprel tarixində torpaqlarımızın bütövlüyü uğrunda gedən bu döyüşdə Qasımov Fəqan əbədi olaraq gözlərini yumdu. Allah rəhmət eləsin!

QASIMOV İLQAR MƏMMƏD oğlu

Qasımov İlqar 1969-cu il oktyabrın 8-də Qaragüney kəndində anadan olmuşdur.Orta məktəbi bitirdikdən sonra göndərişlə Xarkov şəhərinə yola düşür. 1991-ci ilin aprelində Azərbaycana qayıdır. 1992-ci il iyun ayının 15-də Sabirabad rayon Hərbi Komissarlığına gedərək könüllülərə qoşulur, torpaqlarımızın müdafiəsinə yollanır. İlqarın son döyüşü 1992-ci il avqust ayının 27-də Cəbrayıl rayonunda "Şişdağ" əməliyyatı zamanı olur. İlqarın adı əbədiləşdirilərək oxuduğu Qaragüney kənd orta məktəbinə verilmişdir. Allah rəhmət eləsin!

QASIMOV TAHİR XANLAR oğlu

Qasımov Tahir 1971-ci il 19 dekabrda Sabirabad rayonu Kürkəndi kənd kənd sovetliyinin Bulaqlı kəndində anadan olmuşdur. 1992-ci ildə həqiqi hərbi xidmətə Sabirabad rayonu Hərbi Komissarlığı tərəfindən Milli Ordu sıralarına çağırılmış, Şəmkir rayonunda "N" saylı hərbi hissəyə getmişdir. 1993-cü ildə fevral ayının 28-də Ağdərə ətrafında gedən döyüşlərə göndərilmiş və 1993-cü ildə həmin döyüşlərdə şəhid olmuşdur. Allah rəhmət eləsin!

QƏMBƏROV ELDAR MUXTAR oğlu

Qəmbərov Eldar 1964-cü ilin noyabr ayının 24-də Sabirabad şəhərində anadan olmuşdur. 1992-ci il martın 20-də torpaqlarımızın azadlığı uğrunda silaha sarılaraq döyüşə yollanmışdır. Vətənin bütövlüyü uğrunda vuruşan oğlumuz 1994-cü ilin yanvarın 4-də Ağdamın Güllücə kəndi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Allah rəhmət eləsin!

QUBADOV BAYRAM TAHİR oğlu

Qubadov Bayram 1973-cü ilin mart ayının 24-də Cəngən kəndində anadan olmuşdur. 1992-ci ilin may ayında Bayram Qubadovun xidmət etdiyi hərbi hissə Füzuli bölgəsinə göndərilib.Bayram Qubadov cəsur, igid bir döyüşçü idi. 1993-cü ilin iyul ayının 16-da Ağdamın Güllücə kəndi uğrunda

gedən döyüşdə qəhrəmanlıqla həlak oldu. Allah rəhmət eləsin!

QULİYEV KAMİL MİKAYIL oğlu

Quliyev Kamil 1973-cü ilin avqust ayının 26-da Dadaşbəyli kəndində anadan olmuşdur. 1992-ci ilin may ayında həqiqi hərbi xidmətə çağırılmışdır. Bir neçə ay hərbi təlimin sirlərinə bələd olduqdan sonra Füzuli bölgəsinə yollanmışdır. 1993-cü ildə Füzuli rayonu uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olaraq şəhidlik zirvəsinə ucalmışdır. Allah rəhmət eləsin!

QULİYEV RAHİM ƏLƏDDİN oğlu

Quliyev Rahim 1965-ci ildə Qasımbəyli kəndində anadan olmuşdur. 1992-ci ildə könüllü olaraq Qarabağ bölgəsinə yollanmışdır. Rahimin ilk döyüşü Ağdam bölgəsindən başlamışdır. Ağdərə və Zəngilan bölgələrində Rahim əsl şücaət göstərmişdir.1994-cü ilin may ayının 4-də Füzuli ətrafında gedən döyüşlərdə həlak olmuşdur. Allah rəhmət eləsin!

QULİYEV VÜQAR HACIAĞA oğlu

Quliyev Vüqar 1973-cü il fevralın 9-da Bulaqlı kəndində anadan olub. 1993-cü ilin aprel ayında növbəti əsgərlik xidmətinə çağırılmışdır. 3 ay təlimdən sonra Vüqargili Ağdam rayonunun Usubcanlı kəndinə gətirirlər. Döyüşdə şücaət göstərdikdən sonra Vüqarı Füzuli rayonunun Əhmədbəyli kəndinə göndərirlər. 1993-cü ilin avqustın 16-da Füzuli

bölgəsində gedən qızğın döyüşlər nəticəsində qəhrəmancasına şəhid olmuşdur. Allah rəhmət eləsin!

MANAFOV DƏYANƏT NADİR oğlu

Manafov Dəyanət 1974-cü il aprelin 17-də Qəzli kəndində anadan olub. 1993-cü ilin may ayında hərbi xidmətə çağırılıb. Tərtər, Ağdərə və başqa bölgələrdə gedən döyüşlərdə dəyanət əsl qəhrəmanlıq göstərmişdir.1994-cü ilin aprelin 27-də Ağdərə istiqamətində gedən döyüşlərdə qəhrəmanlıqla şəhid oldu. Allah rəhmət eləsin!

MEHDİYEV İSMƏT FƏZAİL oğlu

Mehdiyev İsmət 1971-ci ildə Poladtuğay kəndində anadan olmuşdur. 1989-1991-ci illərdə Rusiyada həqiqi hərbi xidmətdə qulluq etmişdir. Hərbi səfərbərliklə əlaqədar silaha sarılaraq Qarabağın müdafiəsinə qalxmışdır.1993-cü ilin mart ayının 20-də Füzulinin Seyidəhmədli kəndi ətrafında gedən döyüşlərdə həlak olmuşdur. Allah rəhmət eləsin!

MEHDİYEV SADİQ ŞAHPƏLƏNG oğlu

Mehdiyev Sadiq 1971-ci il sentyabr ayının 26-da Qaratəpə kəndində anadan olub. 1992-ci illərdə Qazaxıstanda hərbi qulluğunu yerinə yetirmişdir.1992-ci il avqustun 22-də Tərtər-Ağdərə bölgəsində bir neçə əməliyyatlarda yaxından iştirak etmişdir. 1992-ci ilin oktyabrın 15-də Ağdərə bölgəsində gedən

döyüşlərdə qəhrəman oğlumuz düşmən güllәsindən həlak olmuşdur. Allah rəhmət eləsin!

MƏLİKOV MƏLİK MİKAYIL oğlu

Məlikov Məlik 1971-ci ildə Şəhriyar kəndində anadan olub. 1989-1991-ci illərdə Rusiyada 2 illik hərbi xidmətini başa vurduqdan sonra Vətənə qayıtmışdır.1991-ci il avqust ayında könüllü olaraq Ağdam bölgəsinə yollanmışdır. 1992-ci ilin oktyabrın 27-də Ağdərənin Qazançı kəndi uğrunda gedən döyüşlərdə igid eloğlumuz qəhrəmancasına şəhid olmuşdur. Oxuduğu kənd orta məktəbi şəhidin adını daşıyır. Allah rəhmət eləsin!

MƏMMƏDOV RAMİN ƏLXORASAN oğlu

Ramin Məmmədov 1978-ci il 10 oktyabr tarixində Sabirabad rayonu Türkədi kəndində anadan olub (Təvəllüdünün 1977-ci il olduğunu söylədi Raminin anası Çimnaz xala. O zaman səhv yazılıbmış doğum ili). 5 oktyabr 1996-cı ildə Sabirabad rayonunun Hərbi Komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılmışdır. Hərbi xidmətini Füzuli rayon "N" saylı hərbi hissəsində şərəflə yerinə yetirir. Füzuli rayonunu istiqamətində sərhədlərimizi erməni faşistlərindən qoruyarkən düşmənlə üz-üzə gəlmiş, 18 may 1997-ci ildə ağır yaralanaraq, 21 may 1997-ci ildə şəhidlik zirvəsinə ucalır. "Mən valideynlərimin başını uca tutacağam, üzünü ağ gedib, üzü ağ da qayıdacağam", demişdi şəhid oğlumuz. Allah rəhmət eləsin!

MƏMMƏDOV ƏLİ ŞÜKÜR oğlu

Məmmədov Əli 1965-ci ildə Şəhriyar kəndində dünyaya gəlmişdir.Rusiyada 2 illik hərbi xidmətdə qulluq etmişdir. 1992-ci ilin may ayında silaha sarılaraq könüllü Qarabağa yola duşmüşdür.İlk gündən düşmənə qarşı mübarizəsini görən komandirlər Əliyə serjant rütbəsi vermişdilər.1993-cü il martın 2-də Füzulinin Əbdürrəhmanlı kəndi uğrunda gedən döyüşlərdə igid eloğlumuz şəhid olmuşdur. Allah rəhmət eləsin!

MƏMMƏDOV ASİF BALAKƏRİM oğlu

Məmmədov Asif 1965-ci ildə Osmanlı kəndində anadan olmuşdur. 1982-1984-cü illərdə Rusiyada həqiqi hərbi xidməti başa vurmuşdur. 1992-ci ilin iyunun 8-də könüllü olaraq Qarabağa yollanmışdır.1992-ci ilin avqustun 8-də Ağdərə ətrafında gedən döyüşlərdə həlak olmuşdur. Oxuduğu Osmanlı kənd orta məktəbi hazırda şəhidin adını daşıyır. Allah rəhmət eləsin!

MƏMMƏDOV ÇİNGİZ AĞASƏLİM oğlu

Məmmədov Çingiz 16 avqust 1959-cu ildə Bulduq kəndində anadan olmuşdur. 1977-ci illərdə Sovet Ordusu sıralarına hərbi xidmətə getmişdir. 1979-cu ildə hərbi xidmətini başa vurub doğma kəndlərinə qayıtmışdır. Könüllü olaraq cəbhə bölgəsinə getmişdir.Çingiz Ağdam bölgəsində döyüşlərdə iştirak etmişdir. 5 yanvar 1994-cü ildə Ağdam

rayonunun Güllücə kəndində gedən döyüşlərdə qəhrəmancasına həlak olmuşdur. Allah rəhmət eləsin!

MƏMMƏDOV ELMAN ƏLQƏNBƏR oğlu

Məmmədov Elman 1975-ci ildə Qalaqayın kəndində anadan olmuşdur. 1993-cü ilin mart ayında növbəti hərbi xidmətə çağırılmışdır. 1994-cü ilin yanvar ayının 1-də Füzuli zonasında gedən döyüşlərdə qəhrəman eloğlumuz Elman torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə igidlik göstərərək həlak olmuşdur. Allah rəhmət eləsin!

MƏMMƏDOV HÜSEYN ƏBİL oğlu

Məmmədov Hüseyn 1967-ci ilin may ayının 20-də Nizamikənd kəndində anadan olub. 1992-ci il mart ayının 21-də Ağdama – Allahverdi Bağırovun yanına getmişdi. Hərbi hissədə tağım komandiri kimi fəaliyyətə başlamışdır. 1992-ci ilin iyun ayının 13-də Pircamal və Naxçıvanik kəndlərinin alınması uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Allah rəhmət eləsin!

MƏMMƏDOV İBRAHİM HÜMBƏT oğlu

Məmmədov İbrahim 1962-ci ildə Azadakənd kəndində anadan olmuşdur. 1981-1983-cü illərdə Rusiya vilayətində həqiqi hərbi xidməti başa vurmuşdur.1992-ci ilin mart ayının 23-də könüllü Qarabağa yola düşmüşdür. 1992-ci il sentyabr

ayının 6-da Ağdam bölgəsində gedən ağır döyüşlərdə həlak olmuşdur. Allah rəhmət eləsin!

MƏMMƏDOV İLHAM TEYYUB oğlu

Məmmədov İlham 1971-ci il oktyabr ayının 4-də Osmanlı kəndində anadan olmuşdur. İlham 1989-cu ildə Sovet Ordu sıralarında Həştərxan vilayətində xidmət etmişdir. 1993-cü ilin fevralında könüllü olaraq Milli Ordu sıralarına yazılmışdır. Onunla birlikdə qardaşları Vahid, Ramiz də getmişdilər. O, Ağdərənin və Ağdamın Güllücə kəndinin müdafiəsində mərdliklə vuruşmuşdur. İlham 1994-cü ilin yanvar ayının 4-də Ağdamın Güllücə kəndi uğrunda gedən döyüşlərdə şəhid olmuşdur. Allah rəhmət eləsin!

MƏMMƏDOV İXTİYAR YƏHYA oğlu

Məmmədov İxtiyar 1975-ci il sentyabrın 6-da Qaragüney kəndində anadan olmuşdur. İxtiyar çox vətənpərvər, xalqını sevən bir gənc olmuşdur. O, Qarabağ döyüşünə 1994-cü ildə getdi.İxtiyar torpaqlarımız uğrunda gedən döyüşlərdə qəhrəmanlıqlar göstərdi. 1994-cü ildə Ağdamda itkin düşmüşdür.

MƏMMƏDOV MAYILXAN MƏMMƏDƏLİoğlu

Məmmədov Mayılxan 1964-cü il sentyabrın 2-də Hacıbəbir kəndində anadan olmuşdur.1971-1981-ci illərdə Hacıbəbir kənd orta məktəbində oxumuşdur.1982-1984-cü illərdə

Rusiyada hərbi xidmətini başa vurmuşdur. Belə ki, könüllü olaraq 1994-cü ilin aprelin 21-də əlinə silah alaraq Tərtər bölgəsinə yollanmışdır.1994-cü ilin aprelin 28-də Marquşevani istiqamətində gedən döyüş zamanı şəhid olmuşdur. Allah rəhmət eləsin!

MƏMMƏDOV MEHMAN SAHİBƏLİ oğlu

Məmmədov Mehman 1971-ci ilin yanvarın 26-da Qalaqayın kəndində anadan olmuşdur.1990-cı ilin 20 yanvar gecəsi Rusiya hərbi birləşmələrin Azərbaycana təcavüzü zamanı küçələrə çıxmış minlərlə eloğlullarımızın içərisində Mehman da var idi. Qanlı 20 yanvar günü şəhid olmuşdur. Allah rəhmət eləsin!

MƏMMƏDOV RAHİB RAFİQ oğlu

Məmmədov Rahib 1975-ci ildə Qaratəpə kəndində anadan olmuşdur. 1993-cü ildə Hərbi Komissarlıq tərəfindən həqiqi hərbi xidmətə çağırılmışdır. İlk aylar Bakıda qulluq etmişdir. 1994-cü ilin yanvarın 4-də Füzuli bölgəsinə yola düşmüşdür. 1994-cü ilin yanvarın 15-də Füzulidə gedən amansız döyüşlərin birində Rahib şəhidlik zirvəsinə ucaldı.Allah rəhmət eləsin!

MƏMMƏDOV TEYMUR ƏHMƏD oğlu

Məmmədov Teymur 1973-cü ilin yanvarın 19-da Cavad kəndində anadan olmuşdur. 1992-ci ilin martın 15-də Hərbi

Komissarlığın çağırışı ilə həqiqi hərbi xidmətə çağırılmışdır. Bir neçə döyüşdən sonra 1992-ci il iyun ayının 29-da Kəlbəcər ətrafında gedən döyüşlərdə qəhrəmanlıq göstərərək həlak olmuşdur. Oxuduğu kənd məktəbi şəhidin adını daşıyır. Allah rəhmət eləsin!

MƏMMƏDOV VAHİD ZAKİR oğlu

Məmmədov Vahid Zakir oğlu 1965-ci ilin dekabr ayının 18-də Sabirabad rayonunun Suqovuşan kəndində anadan olmuşdur.Vətənini sevən bütün azərbaycanlı gənclər kimi o da 1993-cü ilin dekabrın 9-da Bakı şəhəri Sabunçu rayon Hərbi Komissarlığından könüllü olaraq cəbhəyə yollandı. Vahid bu döyüşlərdə iştirak edərək qəhrəmancasına vuruşurdu. Lakin 1994-cü ilin yanvarın 4-də Vahid sinəsindən iki güllə yarası aldı və 11 yanvar 1994-cü ildə Vahid gözlərini əbədi yumaraq, şəhidlik zirvəsinə yüksəldi. Allah rəhmət eləsin!

MƏRDALIYEV XALİD HAFİZ oğlu

Mərdalıyev Xalid 3 noyabr 1963-cü ildə Özbəkistan Respublikası Əndican vilayəti Kurqan-Təpə rayonunun Savay kəndində anadan olmuşdur.1965-ciildə ailəsi ilə birlikdə Azərbaycan Respublikası Sabirabad rayonunun Əhmədabad kəndinə gəlmişlər. 1983-cü ildə Sovet Ordusu sıralarına həqiqi hərbi xidmətə çağırılıb. 1994-1995-ci ilin aprelinə kimi Horadiz-Füzuli bölgələrində xidmət edib. 1995-ci ilin aprelin 3-də hərbi tapşırığı yerinə yetirərkən həlak olub. Allah rəhmət eləsin!

MİKAYILOV AĞAŞİRİN HEYDƏR oğlu

Ağaşirin Mikayılov 1968-ci il iyunun 6-da Zalqarağac kəndində anadan olub. 1985-87-ci illər Rusiyada hərbi xidmətini başa vurmuşdur. Ağaşirin Mikayılov ailədə heç kimə demədən, könüllü cəbhə bölgəsinə yollanmışdır. Ağdam bölgəsində döyüşlərdə iştirak etmişdir. 1992-ci il iyun ayının 12-də Naxçıvanik kəndində gedən döyüşlərdə qəhrəmancasına həlak olmuşdur. Oxuduğu məktəb şəhidin adını daşıyır. Ailəsi onun vətən, torpaq uğrunda canını fəda edərək şəhidlik zirvəsinə qalxması ilə fəxarət hissi duyur. Allah rəhmət etsin!

MİRZƏLİYEV RAMİZ SƏHRAB oğlu

Ramiz Mirzəliyev 1973-cü il oktyabr ayının 16-da Zalqarağac kəndində anadan olmuşdur. 1992- ci ilin oktyabr ayında Sabirabad rayonunun Hərbi Komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılmışdır. Qubadlı rayonunun müdafiəsi uğrunda gedən döyüşlərdə iştirak edir, yaralanır, hospitalda müalicə alır, yenidən döyüş meydanına qayıdır. 1994-cü ilin fevralın 21-də Beyləqan ətrafında gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Çölbeşdəli kənd uşaq bağçası onun adını daşıyır. Valideynləri Səhrab dayı, Gülçəmən xala Vətən uğrunda canını fəda edən şəhid oğulları ilə fəxr edirlər və bütün dünyaya müharibəsiz, sakit həyat arzu edirlər. Allah şəhidlərimizə rəhmət eləsin!

MİRZƏYEV ASİF ZAMANXAN oğlu

Mirzəyev Asif 1975-ci ilin avqust ayının 29-da Moranlı kəndində anadan olmuşdur. 1993-cü ilin oktyabr ayının 17-də hərbi xidmətə çağırılmışdır.1994-cü ilin yanvar ayının 31-dən fevralın 1-nə keçən gecə növbəti döyüşə girib və bir daha geri qayıtmamışdır. Füzuli rayonu ətrafında gedən döyüşlərdə itkin düşmüşdür.

MİRZƏYEV ELŞƏN BARAT oğlu

Mirzəyev Elşən 1975-ci ilin avqust ayının 11-də Qalaqayın kəndində anadan olmuşdur. 1993-cü il noyabr ayının 20-də həqiqi hərbi xidmətə çağırılmışdır. Elşənin ilk döyüşü Ağdərə bölgəsindən başlamışdır. 1994-cü ilin fevral ayının 17-də Ağdərə bölgəsində gedən döyüşlərdə həlak olmuşdur. Allah rəhmət eləsin!

MİRZƏYEV İSFƏNDİYAR ƏDALƏT oğlu

Mirzəyev İsfəndiyar 1 fevral 1971-ci ildə Bulduq kəndində anadan olmuşdur. 1992-ci ilin oktyabr ayının 15-də Sabirabad rayon Hərbi Komissarlığından könüllü olaraq cəbhə bölgəsinə getmişdir. Ağdərə bölgəsində döyüşlərdə iştirak etmişdir. 1992-ci ilin noyabr ayının 22-də Ağdərə uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. 1993-cü ildə Nazirlər Kabinetinin qərarı ilə Bulduq kənd orta məktəbinə İsfəndiyar Mirzəyevin adı verilib. Allah rəhmət eləsin!

MİRZƏYEV TƏRLAN QURBANXAN oğlu

Mirzəyev Tərlan 1973-cü ilin yanvarın 6-da Rüstəmli kəndində anadan olmuşdur. 1992-ci ilin may ayının 30-da Hərbi Komissarlıq tərəfindən həqiqi hərbi xidmətə çağırılmışdır. 1992-ci ilin iyun ayının 30-da Naxçıvanik uğrunda gedən döyüşlərdə həlak olmuşdur.Allah rəhmət eləsin!

MÖVLUDOV RAFİQ İSRAFİL oğlu

Mövludov Rafiq 1973-cü il avqustun 5-də Ulacalı kəndində anadan olmuşdur. 1992-ci ilin iyunun 9-da həqiqi hərbi xidmətə çağırılmışdır. 1993-cü ilin yanvarın 1-də Ağdam rayonunda yaradılmış "Sumqayıt batalyonu" nda xidmət etmişdir. 1993-cü il fevralın 7-də Ağdamın Mehmanə kəndi uğrunda gedən qızğın döyüşlərdə qəhrəmancasına həlak olmuşdur. Allah rəhmət eləsin!

MURADOV SARVAN BƏYALI oğlu

Muradov Sarvan 1975-ci ilin avqust ayının 24-də Qəzli kəndində anadan olmuşdur. 1993-cü ilin oktyabr ayının 8-də həqiqi hərbi xidmətə çağırılmışdır. 3 ay hərbi təlim keçdikdən sonra Füzuli istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. 1993-cü il yanvar ayının 26-da Şişqaya ətrafında gedən döyüşlərdə ağır yaralandı və Sabirabad rayon xəstəxanasında bir gün qaldıqdan sonra dünyasını dəyişdi. Allah rəhmət eləsin!

MUSAYEV ŞAHLAR MƏDƏD oğlu

Musayev Şahlar 1973-cü il oktyabrın 26-da Qaratəpə kəndində dünyaya göz açmışdır. 1992-ci ilin may ayında həqiqi hərbi xidmətə çağırılmış, Gəncədə yerləşən "N" saylı batalyonda xidmət etmişdi. 1992-ci ilin noyabr ayında Şahların komandirlik etdiyi hissə Ağdam bölgəsinə göndərilmişdi.1994-cü ilin may ayının 4-də Ağdərə ətrafında gedən döyüşlərdə həlak olmuşdur. Allah rəhmət eləsin!

MÜSEYİBOV İNTİQAM İSLAM oğlu

Müseyibov İntiqam 1973-cü il noyabr ayının 20-də Dadaşbəyli kəndində anadan olmuşdur.1992-ci ildə həqiqi hərbi xidmətə çağırılmışdır. Bir neçə ay təlim keçdikdən sonra Tərtər bölgəsinə göndərilmişdir. 1994-cü il yanvar ayının 28-də Tərtər ətrafında gedən döyüşlərdə qəhrəmancasına həlak olmuşdur. Allah rəhmət eləsin!

MUSTAFAYEV NATİQ XUDAYAR oğlu

Mustafayev Natiq 1975-ci ilin iyun ayının 10-da Xəlfəli kəndində dünyaya göz açmışdır. 1982-1992-ci illərdə kənd orta məktəbində oxumuşdur.1993-cü il iyul ayının 15-də həqiqi hərbi xidmətə çağırılmışdır. Hərbi təlim keçdikdən sonra Füzuli bölgəsinə yollanmışdır. Füzuli rayonunun Qaraxanbəyli kəndi ətrafında gedən döyüşlərdə həlak olmuşdur.Allah rəhmət eləsin!

MUSTAFAYEV QAMƏT NƏCMƏDDİN oğlu

Mustafayev Qamət 1974-cü il avqustun 3-də Qəzli kəndində anadan olub. 1992-ci ilin sentyabrın 25-də hərbi hissəyə yola düşmüşdür. Çıldıran, Ağdərə ətrafında gedən döyüşlərdə ağır yaralanmışdır. Sağaldıqdan sonra yenidən döyüş bölgəsinə qayıtmışdır. 1994-cü il yanvarın 31-də Murov dağı ətrafında gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur.Allah rəhmət eləsin!

MÜTƏLLİMOV BARAT GÜLAĞA oğlu

Mütəllimov Barat 13.sentyabr.1966-cı ildə Çöl-Dəllək kəndində anadan olub. O, 1973-1980-ci illərdə Çöl-Dəllək kənd orta məktəbini qurtarıb. 1988-ci ildə Sovet Ordusu sıralarına gedib, 1990-cı ildə hərbi xidmətdən qayıdıb.1992-ci ildə Dağlıq Qarabağ uğrunda gedən döyüşdə iştirak edib. 1992-ciildə Füzuli rayonunda gedən döyüşdə itkin düşüb.

MÜHİDDİNOV QƏDİR VƏHTO OĞLU

Muxiddinov Zədir 31 yanvar 1974-cü ildə Əhmədabad kəndində anadan olub. 1992-ci ilin mayında Milli Ordu sıralarında hərbi xidmətə çağırılmışdır. Xidmətə Sumqayıt şəhərində başlayıb, bir müddət sonra Üçtəpə adlanan yerə yollanıb. Zədir Ağdam, Çıldıran və Dranbon kəndləri uğrunda gedən döyüşlərdə igidliklə vuruşmuşdur. Zirəddinin taleyinə itkinlik yazılıbmış.

NADİROV EYNULLA XANKİŞİoğlu

Nadirov Eynulla 5 noyabr 1961-ci ildə Sabirabad şəhərində anadan olub. 1980-cı ilin may ayında Sovet Ordusu sıralarında hərbi xidmətə Rusiyanın Volqoqrad şəhərində başlayıb. 1993-cü il oktyabr ayında prezidentimiz Heydər Əliyevin məlum çıxış və çağırışından sonra oktyabr ayının sonuna yaxın öz ərizəsi ilə Milli Ordu sıralarına qəbul olunub. Döyüşə Füzuli rayonunun Horadiz qəsəbəsindən başlayıb. Füzuli rayonunun bir çox ərazilərinin azad olunmasında qəhrəmanlıqla iştirak edib. Həmin bu qanlı döyüşlərin birində təkcə bir hücum zamanı 20 erməni quldurunu öldürmüş və 1 tank partlatmışdı. Ona görə Müdafiə Nazirliyinin 200000 rubl xüsusi pul mükafatına layiq görülmüşdü.1994-cü il 13 yanvar Eynulla Xankişi oğlu Nadirov şəhid oldu. Allah rəhmət eləsin!

NOVRUZOV TƏRLAN NƏRİMAN oğlu

Novruzov Tərlan 1974-cü il dekabr ayının 18-də Sabirabad rayonunda anadan olmuşdur. 1992-ci ilin oktyabr ayının 24-də Sabirabad rayonu Hərbi Komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılmışdır. Hərbi xidmətə Lənkəran şəhərindəki "N" saylı hərbi hissəsindən başlamışdır.Tərlanın döyüş yolu Ağcabədi rayonundan başlamışdır. Həmin döyüşlərdə düşmənin bir piyada maşınını və bir T-72 tankını məhv etmişdir. Beyləqan rayonu ətrafında gedən döyüşlərdə isə düşmənin bir neçə hərbi texnikasını sıradan çıxarmışdır.Tərlanın son döyüşü 1993-cü il dekabr ayının 11-

də Xocavənd yaşayış bölgəsində olmuşdur.Tərlan bu döyüşdə düşmənin bir neçə tankını məhv etdikdən sonra Tərlanın idarə etdiyi tank partlayır və Tərlan bu döyüşdə qəhrəmancasına həlak olur. Allah rəhmət eləsin!

NURİYEV CƏLİL QƏDİR oğlu

Nuriyev Cəlil 1970-ci ilin yanvar ayının 5-də Poladtoğay kəndində anadan olmuşdur.1988-1990-cı illərdə Rusiyada həqiqi hərbi xidmətini başa vuraraq Vətənə qayıtmışdır. 1993-cü ilin iyul ayında əlinə silah alaraq Vətənin müdafiəsinə qalxmışdır. Cəlilin ilk döyüşü Ağdam bölgəsindən başlamışdır.1994-cü ilin may ayının 13-də Füzuli ətrafında gedən döyüşlərdə qəhrəmancasına həlak olmuşdur. Allah rəhmət eləsin!

NURULLAYEV TEYMUR TALIB oğlu

Nurullayev Teymur 1973-cü ilin aprelin 12-də Xəlfəli kəndində anadan olmuşdur. 1992-ci ilin mart ayının 1-də hərbi xidmətə çağırılmışdır.1992-ci ilin iyun ayının 8-də Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndinin Qızılqaya zirvəsində "Qrad" qurğusunu idarə edərkən düşmənin atdığı top güllәsi nəticəsində həlak olmuşdur. Allah rəhmət eləsin!

ORUCOV MƏHƏMMƏD MÜQƏDDƏS oğlu

Orucov Məhəmməd1967-ci il may ayının 27-də Axtaçı kəndində anadan olmuşdur.Orta məktəbi qurtardıqdan sonra

həqiqi hərbi xidmətə çağırılaraq Rusiyada qulluq etmişdir. 1992-ci ilin oktyabr ayının 8-də könüllü olaraqFüzuli bölgəsinə yola düşmüşdür.1994-cü ilin yanvar ayında Murovdağ ətrafında gedən döyüşlərdə həlak olmuşdur. Allah rəhmət eləsin!

PAŞAYEV TƏZƏXAN HİDAYƏT oğlu

Paşayev Təzəxan 1973-cü ildə Hacıbəbir kəndində dünyaya göz açmışdır. Hərbi xidmətini Rusiyada başa vurub. Sonra isə hərbi xidmətini doğma Vətənində davam etdirmişdir. 1994-cü il iyun ayının 3-də Füzuli bölgəsində həlak olmuşdur. Allah rəhmət eləsin!

RƏHİMOV BABƏK ZABİT oğlu

Rəhimov Babək 1970-ci il iyulun 27-də Qəzli kəndində anadan olub. 1988-1990-cu illərdə Rusiyada həqiqi hərbi xidmətdə olub. 1992- ci ilin oktyabrın 9-da könüllü olaraq Qarabağa yola düşüb. Füzulinin Qacar kəndində keşikdə dayanaraq bir neçə döyüşlərdə iştirak etmişdir. 1993- cü ilin aprelin 4-də Qacar və Govşadlı kəndləri uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Oxuduğu məktəb indi qəhrəman eloğlumuz Rəhimov Babək Zabit oğlunun adını daşıyır. Allah rəhmət eləsin!

RƏHİMOV ZAUR KƏRƏM oğlu

Rəhimov Zaur 1974-cü ilin dekabr ayının 27-də Güdəcühür kəndində anadan olmuşdur. 1993-cü ilin may ayının 3-də həqiqi hərbi xidmətə çağırılmışdır. Bir neçə ay hərbi təlim keçdikdən sonra Füzuli bölgəsinə yollanmışdır. İlk döyüşlərdə özünün qorxmazlığı və fədakarlığı ilə döyüşçü dostlarının rəğbətini qazanmışdır. 1994-cü ilin yanvar ayının 23-də Füzuli rayonunun Qaraxanbəyli kəndi uğrunda gedən döyüşlərdə fədakarlıq göstərərək həlak olmuşdur. Allah rəhmət eləsin!

RƏSULOV RƏSUL ƏLİoğlu

Rəsulov Rəsul1 972-ci ildə Xəlfəli kəndində anadan olmuşdur. 1990-cı ildə hərbi xidmətə çağırılmışdır. Füzuli bölgəsi və kəndlərinin qorunmasında Rəsul mərdliklə vuruşmuşdur.1992-ci ilin dekabr ayının 13-də Füzuli bölgəsinin Böyük Bəhmənli kəndi uğrunda gedən döyüşlərdə qəhrəmanlıqla həlak olmuşdur.Allah rəhmət eləsin!

RÜSTƏMOV RÜSTƏM XANQULU oğlu

Rüstəmov Rüstəm Xanqulu oğlu 1975-ci il sentyabr ayının 9-da Kürkəndi kəndində anadan olmuşdur. Orta məktəbi qurtardıqdan sonra 1993-cü ildə həqiqi hərbi xidmətə çağırılmışdır.Rüstəm bir neçə döyüş bölgəsində mərdliklə döyüşmüşdür. 1994-cü ilin aprelin 27-də Füzuli bölgəsində gedən ağır döyüşlərdə qəhrəmanlıq göstərərək həlak olmuşdur. Allah rəhmət eləsin!

RÜSTƏMOV VASİF DADAŞ oğlu

Rüstəmov Vasif1 973-cü il sentyabr ayının 29-da Qəzli kəndində anadan olub. 1992-ci il may ayının 13-də Ali Komandirlər Məktəbinin təminat batalyonunda xidmətə başlamışdır. 1993-cü ilin iyun ayında isə məktəbə daxil olmuşdur. Ancaq məktəbdə bir ay oxuduqdan sonra 1993-cü ilin iyul ayının axırında könüllü olaraq Tərtər könüllü özünümüdafiə batalyonuna yazılmışdır. Ağdərə, Füzulinin Kürdmahmudlu, Bala Bəhmənli, Böyük Bəhmənli, Kərimbəyli, Şükürbəyli, Aşağı Əbdürrəhmanlı, Aşağı Seyidəhmədli, Yuxarı Seyidəhmədli, Horadiz və s. istiqamətdə torpaqlarımızın qorunması uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 1994-cü il yanvarın 26-da Yuxarı Seyidəhmədli kəndində gedən döyüşlərdə həlak olmuşdur. Allah rəhmət eləsin!

SADIQOV NURLAN SADIQ oğlu

Sadıqov Nurlan 21 sentyabr 1974-cü ildə Kürkəndi kəndində anadan olmuşdur. 1992-ci ilin oktyabr ayında Nurlan Sabirabad rayon Kürkəndi kəndindən Milli Ordu sıralarına çağırıldı. 1994-cü ilin yanvarın 27-də Füzuli rayonunun Əbdürrəhmanlı kəndində ağır döyüş gedirdi. Həmin döyüşə yoldaşları ilə yollanan Nurlan bir daha geri qayıtmadı.

SƏDİYEV ELŞƏN SƏRDABAN oğlu

Sədiyev Elşən 1973-cü il aprel ayının 19-da Qaragünə kəndində anadan olmuşdur. 1991-ci il noyabr ayında həqiqi hərbi xidmətə çağırılmışdır. Öz döyüş dəsti-xətti ilə döyüşçü dostlarını və komandirlərini heyrətə gətirmişdir. 1992-ci il iyun ayının 20-də Ağdam uğrunda gedən döyüşlərin birində həlak olmuşdur. Allah rəhmət eləsin!

SƏMƏDOV ƏHMƏDAĞA ƏSLAN oğlu.

Səmədov Əhmədağa 1958-ci ilin 18 fevralında Narlıq kəndində anadan olmuşdur. 1976-cı ildə Riqa şəhərində hərbi xidmətdə olub. 1986-1989-cu illərdə Bakı şəhəri Mərdəkan Milis Məktəbini fərqlənmə diplomu ilə bitirmişdir. Sabirabad rayon polis şöbəsində sahə müvəkkili vəzifəsində işləmişdir. 1988-ci ilin oktyabr ayından müntəzəm olaraq sərhəd rayonlarında ezamiyyətlərdə olmuşdur, döyüşlərdə iştirak edib, qəhrəmancasına vuruşaraq 1991-ci il noyabr ayının 18-də həlak olur. Allah rəhmət eləsin!

SOLTANOV NATİQ ƏLİQULU oğlu

Soltanov Natiq 1974-cü il mayın 20-də Qaratəpə kəndində anadan olmuşdur. Natiq 1992-ci ilin iyun ayının 6-da hərbi xidmətə yola düşmüşdür. 3 ay Bakıda hərbi təlim keçdikdən sonra Füzuli, Laçın, Qubadlı döyüş bölgələrində vuruşmuşdur. 1993-cü il yanvarın 28-də Fərrux yüksəkliyi uğrunda

döyüşlərdə Natiq ağır yaralanır, 1993-cü il yanvarın 30-da Natiq əbədi həyatdan köçür.Allah rəhmət eləsin!

SÜLEYMANOV VAHİD FƏRİŞ oğlu

Süleymanov Vahid 1975-ci ildə Surra nümayəndəliyinin Qaralı kəndində anadan olmuşdur. 20 may 1993-cü ildə həqiqi hərbi xidmətə çağırılır. Cəsur əsgərin döyüş yolu Füzuli rayonundan başlayır. Vətən torpağının qorunması uğrunda gedən döyüşlərdə ölümün gözünə igidliklə baxan Vahid 1994-cü ilin mart ayının 19-da şəhidlik zirvəsinə ucalır. Müsahibə zamanı şəhidin anası Laləzar Əliabbas qızı Süleymanova qəhər içində oğlu Vahidin hər zaman söylədiyi "Vətən mənə oğul desə, mamır olub qayasında bitərəm" məşhur bir sətri asta-asta söyləyərək gözlərinin yaşını əllərinin arxası ilə sildi. Bir dəqiqəlik sükutdan sonra: "İgid balam mamır olub qayalarda bitdi", -dedi. O, göz yaşını sildiyi əlini ürəyinin üstünə qoyub əlavə etdi: "Vətən, torpaq, qeyrət, namus üçün vuruşdu, şəhid oldu Vahidim. Təki Vətən sağ olsun, torpaqlarımızdan yağı düşmən qovulsun, anaların gözündən ayrılıq yox, sevinc yaşları axsın. **Amin!**"

ŞABANOV BAHADUR ƏMİRŞAH oğlu

ŞabanovBahadur 25 may 1974-cü ildə Əhmədabad kəndində anadan olmuşdur.1992-ci ilin noyabrında Milli Ordu sıralarında xidmətə çağırılıb. Hərbi peşəsi minaaxtaran olub. Döyüş yoldaşlarını dəfələrlə təhlükədən qurtarıb.1993-cü ildə noyabr ayında Füzuli, Ağcəbədi bölgəsində gedən döyüşlərdə

həlak olmuşdur. Əhmədabad kənd orta məktəbinə Şabanov Bahadurun adı verilmişdir.Allah rəhmət eləsin!

ŞAHMUROV MÜBARİZ AĞAHÜSEYN oğlu

Mübariz Şahmurov 1963-cü il iyunun 12-də Sabirabad rayonu Nəriman kəndində anadan olub. Hərbi xidmətini Ukraynada başa vurub. Müharibəyə 1991-ci il 16 dekabrda Bakı şəhəri N. Nərimanov Hərbi Komissarlığından gedib. Malıbəyli, Umudlu kəndləri və Xocalı uğrunda döyüşlərdə iştirak etmişdir. 26 fevral 1992-ci ildə Xocalı döyüşündə itkin düşmüşdür. Vətən eşqi ilə canını qurban etmiş igidlərimizə Allah rəhmət eləsin!

ŞIXƏLİYEV ƏLİF ƏLƏŞRƏF oğlu

Şıxəliyev Əlif 1972-ci ilin fevral ayının 26-da Kovlar kəndində andan olmuşdur. 1989-1991-ci illərdə Sovet Ordusu sıralarında qulluq etmişdir. 1992-ci ilin sentyabr ayının 22-də Sabirabad rayon Hərbi Komissarlığına ərizə verərək Azərbaycan Milli Ordusuna yollanmışdır.Ağdərə uğrunda gedən döyüşlərdə iştirak etmiş, 1992-ci ilin oktyabr ayının 4-də Ağdərə uğrunda gedən döyüşlərdə itkin düşmüşdür.

ŞIXƏLİYEV ƏMİRXAN VƏLİXAN oğlu

Şıxəliyev Əmirxan 1964-cü ilin fevral ayının 3-də Şıxsalahlı kəndində anadan olmuşdur. 1984-1986-cı illərdə Rusiyada həqiqi hərbi xidmətini başa vurub Vətənə

qayıtmışdır.1993-cü ilin dekabr ayında əlinə silah alaraq Füzuli bölgəsinə yollanmışdır. 1994-cü ilin yanvarın 27-də Füzuli bölgəsində gedən ağır döyüşlərdə həlak olmuşdur. Allah rəhmət eləsin!

ŞÜKÜROV ELNUR ƏBÜLFƏZ oğlu

Şükürov Elnur 1975-ci il avqust ayının 16-da Şəhriyar kəndində anadan olub. 1993-cü ilin oktyabr ayının 12-də Hərbi Komissarlıq tərəfindən həqiqi hərbi xidmətə çağırılmışdır. 1994-cü ilin martın 19-da Murovdağda gedən döyüşlərdə daha bir cəsur əsgərimiz Şükürov Elnur qəhrəmanlıqla həlak olmuşdur. Axtaçı natamam orta məktəbinə Şükürov Elnur Əbülfəz oğlunun adı verilmişdir.Allah rəhmət eləsin!

TAĞIYEV MƏMMƏD MURADƏLİ oğlu

Tağıyev Məmməd 1969-cu il avqust ayında Kovlar kəndində anadan olub. 1985-1987-ci illərdə Rusiyada əsgəri xidmətini başa vurub öz kəndinə qayıtmışdır. 1992-ci ildə könüllü olaraq Vətənin müdafiəsinə qalxıb silaha sarılmışdı. 1993-cü ilin aprel ayında Füzulinin Qacar kəndi uğrunda gedən döyüşlərdə yaralanmışdır. Aprelin 7-də Tağıyev Məmməd Muradalı oğlu əbədiyyətə qovuşdu. Allah rəhmət eləsin!

TAĞIYEV İSLAM YADULLA oğlu

Tağıyev İslam 1969-cu ildə dekabrın 20-də Nizami kəndində anadan olub. 28.08.1993-cü ildə Dağlıq Qarabağ

uğrunda gedən döyüşlərin gücləndiyini görən Tağıyev İslam könüllü olaraq Sabirabad rayon Hərbi Komissarlığına müraciət edir və döyüş bölgəsinə yollanır. Torpaq uğrunda gedən döyüşlərdə iştirak edir. 28 dekabr 1993-cü ildə həlak olur. Allah rəhmət eləsin!

TAĞIYEV NADİR SADAY oğlu

Tağıyev Nadir 1963-cü ilin may ayının 6-da Şıxsalahlı kəndində anadan olub. Orta məktəbi qurtardıqdan sonra Belarusiya Respublikasında həqiqi hərbi xidmətini başa vuraraq Vətənə qayıtmışdır.1993-cü ilin dekabr ayında ərizəsinə əsasən Qarabağa yola düşmüşdür. Bir neçə döyüş bölgələrində qəhrəmancasına döyüşmüşdür.1994-cü ilin mart ayının 4-də Füzuli rayonunun Seyidəhmədli kəndi uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olmuşdur. Allah rəhmət eləsin!

TAĞIYEV NİCAT BİBİQULU oğlu

Tağıyev Nicat 1974-cü il oktyabr ayının 21-də Osmanlı kəndində anadan olmuşdur.1992-ci ildə həqiqi hərbi xidmətə çağırılmışdır. İlk hərbi təlim keçdikdən sonra Füzuli bölgəsinə göndərilmişdir. Füzuli və ətraf kəndlər ətrafında gedən döyüşlərdə igidliklə vuruşmuşdur. 1993-cü ilin dekabr ayının 22-də Füzulinin Böyük Bəhmənli kəndi uğrunda gedən döyüşlərdə həlak olmuşdur. Allah rəhmət eləsin!

YAHYAYEV ƏNVƏR ADİL oğlu

Yahyayev Ənvər 2 yanvar 1975-ci ildə Güdəcühür kəndində anadan olmuşdur. 1993-cü ilin may ayında həqiqi hərbi xidmətə çağırılmış, hərbi xidmətini Füzuli bölgəsində keçirmişdir. Füzuli bölgəsinin bir çox kəndlərinin azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak etdi, qəhrəmanlıqlar göstərdi. Şişqaya yüksəkliyi uğrunda gedən döyüşlərdə Ənvər itkin düşdü. Bu günə kimi onun haqqında heç bir məlumat yoxdur.

ZEYNALOV CAVAD NİZAMİoğlu

Zeynalov Cavid 1975-ci il dekabr ayının 29-da Qaragünə kəndində anadan olmuşdur. 1992-ci ilin oktyabr ayında həqiqi hərbi xidmətə çağırılmışdır. Bir neçə ay təlim keçdikdən sonra Tərtər bölgəsinə göndərilmişdir. 1994-cü ilin fevral ayının 26-da Tərtər rayon bölgəsində növbəti hücum zamanı həlak olmuşdur. Allah rəhmət eləsin!

ZEYNALOV ZƏKƏRİYYƏ GÜLAĞA oğlu

Zəkəriyyə Zeynalov 1974-cü iyulun 29-da Sabirabad rayon Mürsəlli kəndində anadan olub. 1992- ci il iyun ayında həqiqi hərbi xidmətə çağırılmışdır. 1992-ci il 31 avqust Ağdərə rayonu Dranbon kəndində gedən döyüşlərdə şəhid olmuşdur. Allah rəhmət eləsin!

SABİRABAD RAYON ÜZRƏ ŞƏHİDLİK ZİRVƏSİNƏ UCALMIŞ DÖYÜŞÇÜLƏRİN SİYAHISI ŞƏHƏR ƏRAZİ VAHİDLİYİ

1. Qənbərov Eldar Muxtar oğlu
2. Abbasov Zülfüqar Kamil oğlu
3. Səmədov Əhmədağa Aslan oğlu
4. Novruzov Tərlan Nəriman oğlu
5. Əhmədov Vüqar Əhməd oğlu
6. İsmayılov Rəmzi Möhübbət oğlu
7. Qasımov Elşən Qüdrət oğlu
8. Həmidov Heydər Rza oğlu
9. Ibrahimov Mehdi Şahbaz oğlu
10. Seydiyev Tahir Ağaqulu oğlu
11. Ismayılov Qulam Mətləb oğlu
12. Məmmədov Vahid Zakir oğlu
13. Fərzullayev Vaqif Ulduz oğlu
14. Fərzullayev Zakir Ulduz oğlu
15. Ağayev Həsən Hüseyn oğlu
16. Ağayev Ağadadaş Ağa oğlu
17. Paşayev Telman Sabir oğlu
18. Nadirov Eynulla Xankişi oğlu
19. Vəlixanov İftixar Hidayət oğlu
20. Həsənov Hidayət Sərəslan oğlu
21. Məlikov Xanoğlan Gülağa oğlu
22. Kərimov Vüsal vidadi oğlu

MUĞANGƏNCƏLİ ərazi vahidliyi

1.Həsənov Vüqar Telman oğlu
2.Abuşov Arif Şikar oğlu
3.Məmmədov Azər Məqsəd oğlu
4.Qubadov Bayram Tahir oğlu

5.Əliyev Şamil Əliyar oğlu
6.Şərbətov Əsgər Qardaşxan oğlu
7.Əmənov Kamil İmanxan oğlu
8.Nağıyev Şaiq Zülfü oğlu
9.Səfərov Təvəkkül İlyas oğlu
10.Əhədov Fərzulla Səyyar oğlu

YOLÇUBƏYLİ ərazi vahidliyi

1.Əliyev Qoşqar Güləhməd oğlu
2.Kərimov Mürvət Nəsrəddin oğlu
3.Məmmədov Ramin Əlixorasan oğlu
4.Əzizov Cəsur Tofiq oğlu
5.Ağammədov İsmayıl Əfqan oğlu

ƏLƏMBƏYLI ərazi vahidliyi

1.Ağayev Fərhad İslam oğlu
2.Zabitov Ziyəddin Usman oğlu

QARAGÜNEY ərazi vahidliyi

1.Vəliyev Famil Ağamalı oğlu
2. Müseyibov İntiqam İslam oğlu
3.Zeynalov Cavid Nizamı oğlu
4. Fətişov Elvin Ədalət oğlu
5. Məmmədov İxtiyar Yahya oğlu
6. İsrafilov Bəşir Qasım oğlu
7. Haqverdiyev Faiq Lətif oğlu
8. Fərəcov Nəsimi Sabir oğlu
9.Qasımov İlqar Məhəmməd oğlu
10.Sədiyev Elşən Sərdava oğlu
11.Quliyev Kamil Mikayıl oğlu

***GÜDƏCÜHÜR** ərazi vahidliyi*

1. Rəhimov Zaur Kərəm oğlu
2. Xəlilov Aqşın Arif oğlu
3. Yahyayev Ənvər Adil oğlu
4. Ağayev Mirsabir Mirqədir oğlu
5. Orucov Məhəmməd Murman oğlu
6. Əsgərov Nizamı Əlifəttah oğlu
7. Əliyev Arzu Vaqif oğlu
8. Həsənov Həbib Əlisöhbət oğlu
9. Mehdiyev Ülvi Həsrət oğlu
10. Xəlilov Yasəf Emadi oğlu
11. Almasov Nüsrət Əflan oğlu
12. Rzayev Adil Balahəsən oğlu

***MORANLI** ərazi vahidliyi*

1. Mirzəyev Asif Zamanxan oğlu
2. Mirzəliyev Hümmət Mürvət oğlu
3. Bağırov Elçin Əhmədağa oğlu
4. İslamov Ramazan Bəybala oğlu
5. Muradov Ziya Sərxoş oğlu
6. İmanov Fariz İsbar oğlu
7. Musayev İsmayıl Bayram oğlu

***SURRA** ərazi vahidliyi*

1. Süleymanov Vahid Fətiş oğlu
2. Babayev Şəfi oğlu

***HƏŞİMXANLI** ərazi vahidliyi*

1. Əkbərov Ələşrəf Ələsgər oğlu
2. Məmmədov Şahbaz İsmayıl oğlu
3. Abdullayev Elnur Mətləb oğlu
4. Cəfərov Müslüm Məmməd oğlu

***QALAQAYIN** ərazi vahidliyi*

1. Məmmədov Mehman Sahibəli oğlu
2. Əhmədov İltifat Səmidağa oğlu
3. Abuşov Fikrət Nərçə oğlu
4. Miriyev Sahib Paşa oğlu
5. Əliyev Bəxtiyar Məzlum oğlu
6. Məmmədov Elman Əliqəmbər oğlu
7. Mirzəyev Elşən Barat oğlu

***QARALAR** ərazi vahidliyi*

1. Quliyev Museyib Ramazan oğlu

***QURUZMA** ərazi vahidliyi*

1.Həmidov Mirniyaz Seydəli oğlu
2.Hüseynov Zaur Babahüseyin oğlu
3.Şıxıyev Əlif Ələsrəf oğlu
4. Tağıyev Məmməd Muradəli oğlu
5. Ağarəhimov Afət Abdulla oğlu
6. Kərimov Samir Nadir oğlu
7. Mustafayev Qamət Nəzməddin oğlu
8.Muradov Sarvan Bəyalı oğlu
9.Rəhimov Babək Zabit oğlu
10. Xankişiyev Sərhəd Hacağa oğlu
11.İsgəndərov Faiq Nurəddin oğlu
12. Qasımov Fəqan Fəxrəddin oğlu
13.İbadov Hörmət Eynulla oğlu
14.Rüstəmov Vasif Dadaş oğlu
15.Ağamaliyev Qaşqay Qulaməli oğlu
16.Manafov Dəyanət Nadir oğlu
17. Əliyev Gündüz Əlikram oğlu
18. Əliyev Zaur Əlixeybər oğlu
19.İbrəhimov Əmrulla Rufulla oğulu
20.Əsədov Mütalib Yəhya oğlu
21.Qasımov Səməd Saleh oğlu

***ŞƏHRİYAR** ərazi vahidliyi*

1.Fərəcov Elman Abas oğlu
2.Məmmədov Əli Şükür oğlu
3.Məlikov Məlik Mikayıl oğlu
4.Şükürov Elnur Əbülfəz oğlu
5.Rəsulov Rəsul Əli oğlu
6.Mustafayev Natiq Xubyar oğlu
7.Nurullayev Teymur Talib oğlu
8.İsmayılov Nəriman Cəfər oğlu
9.Mirəliyev Daşqın Səmidağa oğlu
10.Abdullayev Pərvin Nəbi oğlu

***ULACALI** ərazi vahidliyi*

1.Əhmədov Daşqın Qonsur oğlu
2.Mövludov Rafiq İsrəfil oğlu
3.Əhmədov Cavid Abdulәhəd oğlu
4.Dostiyev Aydın Əlisoltan oğlu
5.Aslanov Fəqanı Məhərrəm oğlu
6.Mirzəyev İsfəndiyar Ədalət oğlu
7.Əhmədov Niyaz Təvəkkül oğlu
8.Əhmədov İlkin Ağamalı oğlu
9.Kərimov İsfəndiyar Əligüllah oğlu
10.Məmmədov Çingiz Murad oğlu
11.İsayev Cavid Murad oğlu
12.Zeynalov Zəkəriyyə Gülağa oğlu
13.Gözəlov Murad Ziyadxan oğlu
14.Xankişiyev Davud Mənni oğlu

***ŞIXSALAHLI** ərazi vahidliyi*

1.Məmmədov İlham Teyyub oğlu
2.Paşayev Kamran Nağı oğlu
3.Məmmədov Asif Balakərim oğlu
4.Abdullayev Fazil Əlikram oğlu

5.Hüseynov Azad Məmmədağa oğlu
6.Kazımov Cavad Vaqif oğlu
7.Tağıyev Nadir saday oğlu
8.Tağıyev Nicat Bibqulu oğlu
9.Bayramov Qurban Əvəz oğlu
10.Ağahüseyinov Fəxrəddin Sübhan oğlu
11.Şəxaliyev Əmirxan Vəlixan oğlu

***CAVAD** ərazi vahidliyi*

1.Cəbrayılov Şiralı Ağanəcəf oğlu
2.Əsədov Şahin Hünbət oğlu
3. Burfanov Rasim Rəşid oğlu
4.MəmmədovTeymur Əhməd oğlu
5.Ağayev Mirpaşa Seyidabas oğlu
6.Əhmədov Zeynal Ağayar oğlu
7.Həşimov Bəxtiyar Əjdər oğlu
8.Fərzəliyev Cəlil Əlizaman oğlu
9.ismayılov Niyazı Ehtiram oğlu
10.Ağayev Yalçın Abdulxalıq oğlu
11.Heydərov Qorxmaz Mətləb oğlu
12.Əhmədov Qonsur Əhməd oğlu

***NİZAMİ** ərazi vahidliyi*

1.Hüseynov Rövşən Qulam oğlu
2.Məmmədov Hüseyin Əbil oğlu
3.Məmmədov Ramil Əsədulla oğlu
4. Əliyev Azər Hüseyin oğlu
5.Tağıyev İslam Yədulla oğlu
6.Kərimov Bayram Hətəmxan oğlu
7. Əhmədov Rəsul Eyvaz oğlu
8.Bədirov Zaur Babaxan oğlu
9.Əkbərov Namiq Əzizağa oğlu
10. Mirzəyev Tərlan Qurbanxan oğlu

11.Əsgərov Kamil Ağakərim oğlu
12.Hacıyev Ramız Hacıqulu oğlu
13. Paşayev Təzəxan Hidayət oğlu
14.Məmmədov Mayılxan Məmmədəli oğlu
15. Kərimov Xəqanı Canalı oğlu
16.Mütəllimov Barat Gülağa oğlu
17.Xurşudov Rövşən Aslan oğlu
18. İbadov Zair Tapır oğlu

***KÜRKƏNDI** ərazi vahidliyi*

1. Əliyev Zəbulla Xeyrulla oğlu
2. Rüstəmov Rüstəm Xanqulu oğlu
3. Həsənov Faiq Əli oğlu
4. Bağırov İsmayıl Yusif oğlu
5. Əliyev İbrahim Əlihüseyin oğlu
6. Sadıqov Nurlan Sadiq oğlu
7. Qasımov Tahir Xanlar oğlu
8. Quliyev Vüqar Hacağa oğlu
9. Abbasov Şakir Əsəd oğlu

***MINBAŞI** ərazi vahidliyi*

1. Əsgərov Səyyad Hacağa oğlu
2. Xanlarov Əlif İnqilab oğlu
3. Mustafayev Məzahir Məzahim oğlu
4. Hüseynov Emin B əkir oğlu
5. Qədirov Kamal Mehti oğlu
6. Dəmirov Madər Gülbaba oğlu

***QARATƏPƏ** ərazi vahidliyi*

1.Əhmədov Mübariz Əlizadə oğlu
2.Xanışov Möləm Məmməd oğlu
3.Mehdiyev İlqar Möhübbət oğlu

4.Kərimov Vüqar Nəriman oğlu
5.Mehdiyev Sadiq Şahpələng oğlu
6.Soltanov Natiq Əliqulu oğlu
7.Qəhrəmanov Yalçın Məmmədxan oğlu
8.Məmmədov Rahib Rafiq oğlu
10.Abbasov Asif Mahir oğlu
11.Musayev Şahlar Mədət oğlu
12.Həsənov Niyammədin Sahib oğlu
13.Hüseynov Müşviq Rüstəm oğlu
14.Cahangirov İsmayıl Allahverən oğlu
15.Şahmurov Mübariz Ağahüseyin oğlu
16.Ağayev Rəsul Babaxan oğlu

***QASIMBƏYLI** ərazi vahidliyi*

1.Ənnağıyev Hilal Ələğa oğlu
2.Daşdıyev Maqsud Xankişi oğlu
3.Mehtiyev Mirzeynal Mirəli oğlu
4.Hüseynov Murad Tehmir oğlu
5.Quliyev Rahim Ələddin oğlu

***ƏHMƏDABAD** ərazi vahidliyi*

1.Şabanov Bahadur Əmirşah oğlu
2.Mərdəliyev Xalid Hafiz oğlu
3.İsmayılov Mizam Əmri oğlu
4.Mühiddinov Qədir Vəhto oğlu

***ÇÖLBEŞDƏLI** ərazi vahidliyi*

1.Mirzəliyev Ramiz Sehrab oğlu
2.Mikayılov Şirin Heydər oğlu

***AZADAKƏND** ərazi vahidliyi*

1.İsmayılov Mahir Məmməd oğlu
2.Xankişiyev Mehdi Safa oğlu
3.Xankişiyev Loğman Bala oğlu
4.Nuriyev Cəlil Qədir oğlu
5.Mehdiyev İsmət Fazil oğlu
6.Həmidov Natiq Əlizadə oğlu
7.Əhmədov Cavad Mikayıl oğlu
8.Məmmədov İbrahim Hümmət oğlu
9.Əmənov Gündüz Əmənqulu oğlu
10.Əhədov Fərzulla Səyyah oğlu
11.Xəlilov Cəlal Eldar oğlu
12.Məmmədov Sadiq Əlisəxavət oğlu

"Dünya ağ dəftərə bənzəyir, hər kəs öz yaşadığı ömürü ilə bu dəftərə "avtoqraf" qoyaraq gedir".

Ernest Heminquey

CANIMIZ VƏTƏNƏ FƏDADIR!!!

RƏCƏBOV SƏLVƏR MƏMMƏD oğlu
Qarabağ müharibəsi iştirakçısı

Rəcəbov Sərvər 1961-ci ildə Özbəkstanda doğulub.1989-cu ildə Xosalıda məskunlaşıb. Xocalı şəhərində düşmənə qarşı torpaqlarımızın müdafiəsində bölük komandiri kimi döyüşlərdə iştirak edib.1993-cü ildə Sabirabad rayon Axıxa kəndində ikinci dəfə məskunlaşıb. Döyüşlərdə şücaət göstərdiyi üçün **"Azərabaycan bayrağı "** ordeni ilə təltif edilmişdir. Allah igid oğullarımızı qorusun! Amin.

HÜSEYNOV FAİQ İSRAFİL oğlu
Qarabağ müharibəsi iştirakçısı, Azərbaycan Vətən müharibəsi Veteranlari Birliyi Sabirabad rayon şöbəsinin sədri

Hüseynov Faiq 1971-ci il 29 noyabrda Sabirabad rayonunun Suqovşan kəndində anadan olub. O, Rusiyada, keçmiş sovet orusunda hərbi xidməti başa vurduqdan sonra orada qalıb işləyib, yaşayıb. Amma Vətənin dar günündə Azərbaycana gəlib.1993-cü ilin noyabr ayında könüllü olaraq cəbhəyə yollanıb.Milli Qəhrəman qubadlılı Əliyar Əliyevin komandiri olduğu batalyonun tərkibində Ağdam və Füzuli bölgələrində kəşfiyyatçı kimi döyüşlərdə iştirak edib. F.Hüseynov 1997-ci ildən rayonun ictimai-siyasi işlərində fəal iştirak edir. Rayon İcra Hakimiyyəti Başçısı yanında fəaliyyət göstərən müxtəlif komissiyaların üzvü olub.O , ictimai fəaliyyyəti ilə məşğul olmaqla yanaşı , eyni zamanda müqqədəs şəhidlərimizin əziz xatirələrinə həsr edilmiş

müxtəlif tədbirlər həyata keçirməklə yeniyetmə və gənclərin vətənpərvərlik tərbiyəsi sahəsində də mühüm addımlar atıb. Bir faktı da yazmaq da yerinə düşərdi. Faiq Hüseynovun qardaşı Azər Hüseynov da Qarabağ müharibəsinin iştirakçısıdır. Qarabağ müharibəsi veteranı Faiq Hüseynov ön cəbhədə olarkən Sabirabadın ağsaqqalı, Rayon Veteranlar Şurasının sədri Zülfəli Hüseyin oğlu Əliyevin tez-tez ön cəbhədəki əsgərlərlə görüşə gəlməsini, ərzaq və geyim gətirdiyini, onlarla hərbi ruhda söhbət etdiyini qeyd etdi.

PAŞAYEV FÜZULİ SURXAY oğlu.
II qrup Qarabağ müharibəsinin əlili.
Azərbaycan Qarabağ müharibəsi əlilləri, veteranları və şəhid ailələri İctimai Birliyinin Sabirabad rayon şöbəsinin sədri.

1966-cı il Sabirabad rayonun Qalaqayın kəndində anadan olub. Keçmiş Sovet ordusunda 1984-ci ildə hərbi xidmətdə olub. 1993-cü ilin aprel ayında Sabirabad rayon Hərbi Komissarlığından könüllü olaraq cəbhəyə yola düşmüşdür. Qubadlı rayon "N" saylı hərbi hissəsində döyüş əmrlərini yerinə yetirmişdir. Cəbrayıl-Ağdam rayonu bölgələrində gedən döyüşlərdə iştirak etmişdir. 1994-cü il 14 yanvarda Ağdam istiqamətində gedən döyüşlərin birində yaralanmışdır. Füzuli Paşayev Azərbaycan Qarabağ müharibəsi əlilləri, veteranları və şəhid ailələri ictimai birliyinin Sabirabad rayon filialının sədri kimi şəhid və müharibə iştirakçılarının ailələri ilə görüşür, onların problemləri ilə maraqlanır və təşkilatın xətti ilə köməklik göstərir. Vətənin, torpağın qorunması uğrunda vuruşan mübariz döyüşçülərimizi, həmvətənlərimizi Allah qorusun, onlara can sağlığı versin. **AMİN!!!**

ASLANOV İSLAM ASLAN oğlu

II qrup əlil Qarabağ müharibəsinin əlili

Aslanov İslam 28 aprel 1961-ci ildə Sabirabad rayonunda anadan olub. Könüllü olaraq 1992-ci il Füzuli bölgəsində gedən döyüşlərdə iştirak etmişdir. Sözü gedən bölgədə şücaətlə vuruşmuşdur və bu döyüşlərin birində yaralanmışdır. Hal-hazırda Azərbaycan Vətən müharibəsi veteranları İctimai Birliyinin Sabirabad rayon şöbəsinin sədr müavini vəzifəsində çalışır.Vətən sevən qəlbiniz var olsun, əziz həmvətənlərim!

AĞAYEV RƏMZİ FƏRMAN oğlu

I qrup Qarabağ müharibəsinin əlili

Ağayev Rəmzi 1978-ci il mayın 18-də Qalaqayın kəndində anadan olub. 1997-ci ilin iyulunda həqiqi hərbi xidmətə çağırılıb. Giləzi qəsəbəsində 6 ay hərbi hazırlıq keçir və oradan da Murovda "N" saylı hərbi hissədə qulluq edir. 1998-ci il oktyabrında Erməni silahlı ordusunun növbəti hücumunun qarşısı alınan zaman yaralanıb. Kəşfiyyat -tağım komandiri olan bu cəsur igid, vətən oğlu müxtəlif fəxri fərmanlarla təltif olunmuşdur. Qarabağ əlillərindən ibarət "Mübarizlər" bədii teatr truppasının üzvüdür və fəal iştirakı üçün 2001-2010- cu illərdə diploma layiq görülmüşdür.

BAĞIROV RƏHMAN İMRAN oğlu

II qrup əlil Qarabağ müharibəsinin əlili

Bağırov Rəhman 1970-cil il 6 avqust Suqovşan kəndində anadan olub.1992 –ci ilin oktyabrın 6-da könüllü olaraq cəbhəyə yola düşür. Füzuli rayonu istiqamətində döyüşlərdə iştirak edib. 1994-cü ilin yanvarın 1-də düşmənin hücumu

zamanı bir tank və piyada döyüş maşınını məhv etmişdir.Cəsarətli döyüşçü bu cəsur addımı üçün fəxri-fərmanla təltif olunmuşdur. 1994-cü ilin fevralın 2-də isə Füzuli rayonunun Aşağı Əbdülrəhmanlı kəndinin müdafiəsi uğrunda gedən döyüşlərdə yaralanmışdır. Torpağa , Vətənə olan sevgi bu qorxmaz döyüşçüləri düşmənə qarşı hər zaman ayıq və amansız olmağa səsləmişdir. Allah sizi qorusun əziz həmvətənlərim.

ƏSGƏROV BƏHLUL ƏDİL oğlu.

II qrup əlil Qarabağ müharibəsinin əlili

Bəhlul Əsgərov 1974-cü il yanvarın 20-də Sabirabad rayonu Xəlfəli kəndində anadan olub. 1992-ci il Sabirabad rayon Hərbi Komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılmışdır. Laçın bölgəsində döyüşlərdə iştirak etmişdir. Xoçaz dağının müdafiəsində yaralanmışdır. Qarabağ müharibəsinin II qrup əlilidir. Bəhlul Əsgərovla ünsiyyət qurduğumuz zaman o söylədi ki, fiziki cəhətdən sağlam olmasam da, Vətənimin işğalda olan torpaqlarını azad etməyə hər zaman hazıram. **TƏKİ VƏTƏN SAĞ OLSUN!!!**

CƏFƏROV SEYFƏDDİN QABİL oğlu

I qrup əlil Qarabağ müharibəsinin əlili

Cəfərov Seyfəddin 1974-cü ildə Qaratoğay kəndində anadan olub.1992-ci ildə Ağdam rayonu istiqamətində döyüşlərdə iştirak edib. 1993-cü ilin martın 9-da minaya düşərək hər iki ayağını itirib. Cəsur döyüşçü olmuş Seyfəddin – "Vətənimin torpağını qorumağa hər zaman hazıram" deyir. Vətən sevən ürəyiniz var olsun.

Əhmədov Məhərrəm Hüseynqulu oğlu
II qrup əlil Qarabağ müharibəsinin əlili

Əhmədov Məhərrəm Hüseynqulu oğlu 1969-cu il martın 26-da Suqovşan kəndində anadan olub.Torpaqlarımızın müdafiəsində könüllü iştirak edib.Füzuli istiqamətlərində gedən döyüşlərdə igidlik göstərib. 1993-cü ildə Füzulinin Yağlıvənd kəndinin müdafiəsi uğrunda gedən döyüşlərdə yaralanıb. Döyüşçü yoldaşları Məhərrəmin qormaz , cəsur olduğunu söylədilər .Allah siz igidlərimzi qorusun.Amin

ƏLİYEV ZÜLFÜQAR QAFUR oğlu.
I qrup əlil Qarabağ müharibəsinin əlili

Əliyev Zülfüqar 1970-ci il mayın 2-də Pakrovka kəndində anadan olmuşdur. 1988-ci ilin iyun ayında Sovet ordusu sıralarında xidmətdə olmuşdur. 1993-cü il Qubadlı rayon istiqamətində döyüşlərdə iştirak etmişdir. 1994-cü il yanvarın 15-də Ağdamın Atçılıq (Konzavod) deyilən ərazidə gedən döyüşlərdə yaralanmışdır. 2011-ci il 18 oktyabrda "Tərəqqi" medalı ilə təltif edilmişdir. Allah can sağlığı versin!

MƏMMƏDOV ƏRZUMAN CAVAY oğlu.
I qrup Qarabağ müharibəsi əlili

Ərzuman Məmmədov 1974-cü il martın 1-də Sabirabad rayonunun Muradbəyli kəndində anadan olub. 1994-cü il Ağdam, Tərtər bölgəsində gedən döyüşlərdə iştirak edib. Vətənini, torpağını sevən bu cəsur həmvətənlimiz düşmən güllələsindən qorxmayab döyüşdə hər zaman öndə olub və torpaq uğrunda gedəndöyüşlərdə öz qorxmazlığı,cəsarəti ilə fərqlənib. 1996-cı il sentyabrın 24-də Ağdamın Əhmədağalılar

kəndində gedən döyüşdə yaralanır və hər iki ayağına dəyən güllə yarasından əlil olur. Ərzuman deyir ki, Ali Baş Komandanım əmr verərsə, bu əlil halımla yenə də Vətənin müdafiəsinə gedərəm.

GÜLƏLİYEV VİDADİ RAFİQ oğlu.
I qrup Qarabağ əlili, Prezident təqaüdçüsü.

Güləliyev Vidadi 1973-cü il avqustun 2-də Sabirabad rayonunda anadan olub. 1991-ci ilin iyununda həqiqi hərbi xidmətə gedib və Ağdərə istiqamətində gedən döyüşlərdə iştirak edib. 1992-ci il sentyabrın 25-də Ağdərərayon Çılıdran kəndində yaralanıb. O, sağlamlığını itirməsinə baxmayaraq, öz fəaliyyəti ilə Vətənə xidmət etməyi özünə borc bilir.O, Sabirabad rayon Mədəniyyət Evində fəaliyyət göstərən "Mübarizlər" bədii öz fəaliyyət teatr qrupunun rəhbəri işləyir. Azərbaycanda keçirilən əlillərin bədii yaradıcılıq baxış müsabiqəsinin 5 dəfə qalibi olan Vidadi Ulu Öndərimizlə görüşmüşdür. Və onun şəxsən verdiyi mükafatı həyatında aldığı ən qiymətli mükafat kimi qoruyub saxlayır. Allah can sağlığı versin!

HƏSƏNOV BƏXTİYAR MƏMMƏDHƏSƏN oğlu.
I qrup əlil Qarabağ müharibəsinin əlili

Həsənov Bəxtiyar 1974-ci ilin 1 avqustunda Qalaqayın kəndində anadan olub. 1992-ci il həqiqi hərbi xidmətə çağırılmış Laçın, Kəlbəcər istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Murovdağda yerləşən "N" saylı hərbi hissədə atəşkəsə qədər xidmət etmişdır. Murovdağ istiqamətində sərhədlərin qorunması uğrunda gedən döyüşlərin birində

donvurma nəticəsində 2 ayağını itmişdir. Allah Vətən sevən qorxmaz igidlərimizi qorusun!

HÜMBƏTOV AMİL CƏLAL oğlu.
Qarabağ müharibəsinin iştirakçısı.

Hümbətov Amil 1967-ci il 26 martda Nizamikənddə anadan olub. 1992-ci il Sabirabad rayon Hərbi Komissarlığına müraciət edərək Ağdam bölgəsinə könüllü gedib. Amil döyüş yolunu Eldar Bağırovun könüllü özünümüdafiə batalyonunda keçirib. Aranzəminli, Pircamallı, Naxçıvanik kəndlərində gedən döyüşlərdə iştirak edib. 1992-ci il iyunun 17-də Pircamallı kəndində yaralanıb. Hal-hazırda Azərbaycan Vətən müharibəsi veteranları birliyinin Sabirabad rayon şöbəsinin sədr müavini vəzifəsində çalışır. Vətən sevən qəlbiniz var olsun, əziz həmvətənlərimiz!

MƏMMƏDOV NEMƏT RƏFİ oğlu.
III qrup Qarabağ müharibəsi əlili

Nemət Məmmədov 1970-ci il fevralın 1-də Surra kəndində anadan olub. 1993-cü ildə Ağdam, Füzuli, Tərtər, Ağdərə bölgələrində döyüşlərdə iştirak edib. Azərbaycanın Milli Qəhrəmanı Əliyar Əliyevin komandiri olduğu Qubadlı batalyonunda kəşfiyyatçı olub. 20 aprel 1994-ci il ildə Füzuli rayonu Horadiz kəndi ilə Horadiz qəsəbəsi arasında gedən ağır döyüşlərdə yaralanmışdır. Bu döyüşdə döyüşçü yoldaşı Vaqif Fərzullayev şəhid olur və Nemət onun cəsədini döyüş meydanından çıxarmağa çalışdığı zaman ağır güllə yarası alır. Yaralanmasına baxmayaraq, o, dünyasını dəyişən döyüşçü yoldaşını atışma zolağından uzaqlaşdırır. Nemət

Məmmədovla söhbətimiz zamanı qeyd etdi ki, Vaqifin qardaşı Zakir də həmin gün Tərtər rayonunun Səhlilabad kəndində düşmənlə üzbəüz döyüşdə şəhidlik zirvəsinə ucalıb. İki qardaş bir gün içində torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə şəhid oldular.Allah bütün şəhidlərimizə rəhmət eləsin. Bu kitabın yazılması çox yaxşıdır gələcək nəsillərə bir tarixdir dedi – cəsur döyüşçü Nemət Məmmədov .

ƏLIYEV RƏFAIL MƏHƏMMƏD oğlu.
I qrup Qarabağ müharibəsi əlili

Rəfail Əliyev 1973-cü ildə Qalaqayın kəndində anadan olub. 1992-ci ildə həqiqi hərbi xidmətə çağırılıb və DİN-in Daxili Qoşunlar hissəsində xidmətdə olub. Ağdam, Füzuli bölgəsinə düşmənlərin hücumları zamanı o döyüşlərdə iştirak etmişdir. Rəfail Əliyev şöhbətini belə başladı- "1992-ci il ilin yay ayları idi, Əsgəran istiqamətində döyüşlər gedirdi. Çox ağır döyüş oldu, bizim itkimiz çox oldu. Amma içi erməni cəlladları ilə dolu olan kamaz və hərbi avtomobilini vurduq. Demək olar ki, kənd bizim döyüşçülərin əlində idi. Amma bir neçə saat keçdikdən sonra rus əsgərlərinin hücumuna məruz qaldıq və onlar kəndi geri aldılar. Müharibədən danışan zaman gözümün önünə düşmən gülləsindən qorxmayan canını qurban vermiş döyüşçülər gözümün önünə gəlir. Şəhid Zülfüqar Abasov, şəhid Mehdi İbrahimov və adlarını dəqiq xatırlaya bilmədiyim döyüşçü yoldaşlarım, **ALLAH SİZƏ RƏHMƏT ELƏSİN".**

Vətən eşqi ilə yaşayan bu igid döyüşçü 1992-ci il Ağdamda gedən döyüşlərdə hərəkət dayaq sistemindən güllə yarası alır

və aldığı güllə yarasından yataq xəstəsi olur. Onun müalicəsini Azərbaycan Dövləti Rusiyada və Türkiyədə davam etdirir. Az da olsa sağlamlığına qovuşan Rəfail ailə qurub 3 yaşlı Xədicə adlı gözəl-göyçək bir qız atasıdır. Allah qorusun!

SƏFƏROV ZAUR ADİL oğlu.

Qarabağ müharibəsinin iştirakçısı . I qrup əli.l

Səfərov Zaur 1974-cü il 3 iyun Muğangəncəli kəndində anadan olmuşdur. 1992-ci il həqiqi hərbi xidmətə çağırılmışdır. Füzuli rayonu istiqamətində gedən döyüşlərdə iştirak etmiş, 1994- cü il yanvarın 26-da o bölgə üzrə gedən döyüşlərin birində yaralanmışdır. Sağlamlığını itirsədə, Zaur Vətənin müdafiəsinə hər zaman hazır olduğunu dedi. Allah can sağlığı versin!

SULTANOV İLHAM ƏYYAM oğlu.

Qarabağ müharibəsinin iştirakçısı.

Sultanov İlham 17.06.1960-cı ildə Sabirabad rayonunda anadan olub. 1978-ci ildə Sabirabad rayon Hərbi Komissarlığından hərbi xidmətə çağırılmışdır. 1980-ci ildə hərbi xidmətini bitirib, Simferopol Ali Hərbi Siyasi İnşaat Məktəbinə daxil olub. 1984-cü ildə oranı müvəffəqiyyətlə bitirib. 1984-1992-ci illərdə Sovet Ordusunda xidmət edib. Ürəyi Azərbaycanla döyünən İlham 1992-ci ildə Xocalı soyqırımından sonra Rusiyada qala bilməyib ailəsi ilə birlikdə Azərbaycana gəlib. 1993-cü ildə könüllü olaraq Ağdama gedib və müharibədə iştirak edib. 1998-2002-ci illərdə Füzulidə "N" saylı hərbi hissədə briqada komandirinin tərbiyəvi işlər üzrə

müavini vəzifəsində çalışıb. İlham Qarabağ müharibə veteranı, ehtiyatda olan polkovnik-leytenantdır.

TAĞIYEV CABBAR MƏHƏMMƏD oğlu

Qarabağ müharibəsinin iştirakçısı. II qrup əlil

Tağıyev Cabbar 1975- ci il yanvar ayının 1 -də Sabirabad rayonunda anadan olub.1993-cü ildə həqiqi hərbi xidmətə çağırılmışdır və Tərtər rayonununda yerləşən "N" saylı hərbi hissədə xidmət etmişdir.1994-cü il Kəlbəcər rayonunun Yanşaq kəndində minaya düşmüş, col ayağını itirmişdir. Cəsur insanlar Vətənin ilə fəxridir. Allah qorusun sizi.

Qarabağ müharibəsində fiziki sağlamlığını itirmiş əlill döyüşçülər

Şəhər ərazi vahidliyi

1. Abbasov Elman Abasağa oğlu
2. Dərgahov Əlizamin Həmid oğlu
3. Dərgahov Əlizamin Əbil oğlu
4. Eminov Əziz Xanoğlan oğlu
5. İsmayılov Bayram Adil oğlu
6. Səftərov Şəfaqət Abdulla qızı
7. Xəlilov Əlizamin Səmid oğlu
8. Şahverənov Rəfayil Allahverdi oğlu
9. Güləliyev Vidadi Rafiq oğlu
10. Əliyev Toğrul Nadir oğlu
11. Əliyev Şahin Tofiq oğlu
12. Əhmədov Qalib Nurəddin oğlu
13. Paşayev Füzuli Surxay oğlu
14. Əhmədov Ülvi Novruz oğlu Xirdalan şəhərinə köçüb
15. Həsənov Mehman Niyaz oğlu
16. Əliyev Zülfiqar Qafur oğlu
17. Səfərov Zaur Adil oğlu
19. Hümbətov Zaur Məhəmməd oğlu

Qaratəpə ərazi vahidliyi

1. Kərimov Babalar Əlgüşad oğlu
2. Rüstəmov Ramin Bəşir oğlu
3. Cəfərov Ağabala Bəybala oğlu
4. Əhmədov Mirzə Əlirza oğlu
5. Həsənov Hüseyin Əlihüseyin oğlu

Kürkəndi ərazi vahidliyi

1. Vəliyev Tərxan
2. Rəhimov Əli İdris oğlu
3. Şirinov Həmidulla Dadaş oğlu
4. Əhmədov Məhərrəm Hüseyinqulu oğlu
5. Cəfərov Vüqar Xanbala oğlu
6. Qasımov Mikayıl Cahangir oğlu
7. Əliyev Əliyağa Siran oğlu
8. Bağırov Rəhman

Qaralar ərazi vahidliyi

1. Abbasov Füzuli Mirzəağa oğlu
2. Qurbanov Gündüz Yədulla oğlu
3. Nuriyev Zaur Vahab oğlu
4. Qasımov Pənah Əlisahib oğlu
5. Mahmudov Mahir Kazım oğlu
6. Paşayev Cəmil Hacıağa oğlu
7. Quliyev Bəylər Dədəkişi oğlu

Surra ərazi vahidliyi

1. Məmmədov Natiq Rəfi oğlu
2. Məmmədov Nemət Rəfi oğlu
3. Mənsimov Muxtar Cəfər oğlu
4. Babayev Abış Alış oğlu

Axısıxa ərazi vahidliyi

1. İşıqov Şakir Nazim oğlu

Quruzma ərazi vahidliyi

1. Məhərrəmov Əli Cahandar oğlu
2. Əliyev Ağacan Nadir oğlu
3. İsmayılov Sərgər Firudin oğlu
4. Məmmədov Taleh Nüsrət oğlu
5. Rüstəmov Bulud Atamalı
6. Nəzərov Sənan Seyfəli oğlu
7. Həsənov Ehtiram Ağagül oğlu
8. Həsənov Güləhməd İbad oğlu
9. Həsənov Xidmət Ağaseyid oğlu
10. Ağayev Vüqar Mirnağı oğlu
11. Zülfüqarov Zəhmət Poladxan oğlu
12. Əkbərov Rahib Şəmsi oğlu
13. Əliyev Ağabala Bəhmən oğlu

Ulacalı ərazi vahidliyi

1. Alışov Elçin Ataxan oğlu
2. Ağayev Elşən İmanqulu oğlu
3. Qasımov Füzuli Bəylər oğlu
4. Nəsirov İxtiyar Soltanəli oğlu
5. Əliyev Rəcəb Möuhübbət oğlu
6. Kərimov Səyyar Cəbrayıl oğlu

Həşimxanlı ərazi vahidliyi

1. Ağayev Famil Məmməd oğlu
2. Əkbərov İxtiyar Nuhəli oğlu
3. Əhədov Natiq Yengibar oğlu
4. Məstənov Zəkrəddin Zəkulla oğlu
5. Əsədov Şirvan Musatafa oğlu

6. Bayramov Bayram Xanqulu oğlu

Güdəcühür ərazi vahidliyi

1. Vəliyev Məmməd oğlu
2. Quliyev Qismət Qulam oğlu
3. Feyzullayev Bəxtiyar İsrail oğlu
4. Cəfərov Seyfəddin Qabil oğlu
5. Səfərov Taleh İslam oğlu
6. Rzayev Şəmsiyar İspəndiyar oğlu
7. Səfərov Rais Mərdalı oğlu
8. Rzayev Şəmsiyar İspəndiyar oğlu

Şıxsalahlı ərazi vahidliyi

1. Tağıyev Cabbar Məhəmməd oğlu

Qaragüney ərazi vahidliyi

1. Rəsulov Bəxtiyar Şəmsi oğlu
2. Şıxəliyev Adil Mehman oğlu
3. Əsədov İxtiyar İmanqulu oğlu

Minbaşı ərazi vahidliyi

1. Xəlilov Kərəm Mahnud oğlu
2. Əliyev Əli İbadulla oğlu
3. Qocayev Ehtibar Həsən oğlu
4. Xankişiyev Ramiz Əflatun oğlu

Azadakənd ərazi vahidliyi

1. Abuşov Əfqan Hekayət oğlu
2. Ağayev Samir Zakir oğlu

3. İsgəndərov Atakişi Həsənağa oğlu
4. Kərimov Nüsrət Abbas oğlu
5. Məmmədov Camal Cumalı oğlu
6. Fərzəliyev Əfqan Zakir oğlu

Muğangəncəli ərazi vahidliyi

1. Ağayev Əlşad Hüseyin oğlu
